RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 154 (10174) 27 avqust 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev "Sabah" futbol klubunu təbrik edib




Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında "Sabah" futbol komandasının UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması münasibətilə paylaşım edilib.

AZƏRTAC paylaşımı təqdim edir:

"Sabah" futbol klubunu möhtəşəm zəfər qazanaraq UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə əldə etməsi münasibətilə ürəkdən təbrik edirəm.

Yeni yaradılmış bir komandanın qısa müddət ərzində belə böyük nailiyyətə imza atması xüsusi sevinc və qürur doğurur. Klublarımızın ardıcıl ikinci dəfə dünyanın ən güclü klub turnirinin əsas mərhələsində mübarizə aparmaq hüququ qazanması Azərbaycanın bütün sahələrdə əldə etdiyi tərəqqinin, ölkəmizin idman dövləti kimi mövqeyinin daha bir bariz göstəricisidir.

"Sabah" klubuna qarşıdakı matçlarda yeni-yeni qələbələr və uğurlar arzulayıram!"



# Artan geosiyasi və geoiqtisadi güc

## Avrasiyanın yeni düzənini formalaşdırır

Azərbaycanın regionda aparıcı rola sahib olması əlverişli coğrafi mövqeyi, zəngin ənənəvi və qeyri-ənənəvi resursları ilə bağlıdır. Lakin o da reallıqdır ki, əsas səbəb illərdir dövlətimizin həyata keçirdiyi çoxşaxəli, balanslaşdırılmış xarici siyasət, beynəlxalq hüquqa sadiqlik və daxildə qurulan güclü infrastrukturdur.

Ötən il Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Azərbaycanın bu formata tamhüquqlu üzv seçilməsi də həyata keçirilən uzaqgörən siyasətin növbəti nəticəsidir. Bu addımla regional əməkdaşlıq "C5" formatından "C6" formatına keçdi. Yəni Mərkəzi Asiya beşliyi Azərbaycanı öz sırasına qəbul edərək Cənubi Qafqazla vahid iqtisadi-siyasi birlik formalaşdırdı.

Prezident İlham Əliyev bu inteqrasiyanın mahiyyətini Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsi zamanı bu cür izah edib: "Azərbaycan Mərkəzi Asiya ölkələri ilə siyasi dialoqun genişləndirilməsinə, iqtisadi əlaqələrin dərinləşdirilməsinə, nəqliyyat və kommunikasiya imkanlarının artırılmasına, həmçinin enerji və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir... ...Azərbaycanın bu prosesə fəal qoşulması nəticəsində əvvəllər "C5" adlanan əməkdaşlıq formatı faktiki olaraq "C6" formatına çevrilib, regional dialoq və strateji tərəfdaşlıq isə yeni məzmun və miqyas qazanıb".

Ölkəmizin rəhbərinin ifadə etdiyi bu yeni məna və miqyası dünya nəhəngi Çinin "Bir kəmər, bir yol" layihəsində Mərkəzi Asiyanın Avropaya çıxışının məhz Azərbaycanın geostrateji imkanları və yaratdığı tranzit şəraiti sayəsində mümkün və effektiv olması ilə əyani şəkildə görmüş oluruq.

4



## Birinci vitse-prezident Mehriban Əliyevanı təbrik ediblər

Avqustun 26-da Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəng edib.

Əminə Ərdoğan Birinci vitse-prezident Mehriban Əliyevanı ad günü münasibətilə təbrik edərək, ona möhkəm cansağlığı və yeni müvəffəqiyyətlər arzulayıb.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan Mehriban Əliyevanın xeyirxah fəaliyyətinin dünyada böyük rəğbətlə qarşılandığını vurğulayıb.

Azərbaycanın Birinci vitse-prezidenti göstərilən diqqətə və təbriklərə görə təşəkkür edib.

Telefon söhbəti əsnasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Türkiyənin birinci xanımı Əminə Ərdoğanın səmimi görüşləri məmnunluqla xatırlanıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Türkiyənin birinci xanımı Əminə Ərdoğan qardaşlıq və strateji müttəfiqlik əlaqələrimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildiriblər.

❖ ❖ ❖

Avqustun 26-da Özbəkistan Respublikasının birinci xanımı Ziroat Mirziyoyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəng edib.

Ziroat Mirziyoyeva Mehriban Əliyevanı ad günü münasibətilə təbrik edərək səmimi arzularını çatdırıb.

O, bir neçə gün əvvəl Azərbaycanın Birinci vitse-prezidenti ilə Özbəkistanda görüşlərini ən xoş təəssüratlarla xatırlayıb.

Ziroat Mirziyoyeva Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin, nəcib təşəbbüslərinin yalnız Azərbaycanda deyil, bütün dünyada böyük rəğbət qazandığını vurğulayıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva göstərilən diqqətə və təbriklərə görə Ziroat Mirziyoyevaya təşəkkür edib.

Birinci vitse-prezident Mehriban Əliyeva da öz növbəsində Özbəkistana səfərini məmnunluqla xatırlayaraq, göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirib.

❖ ❖ ❖

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəng edib.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Azərbaycanın Birinci vitse-prezidentini ad günü münasibətilə təbrik edib, möhkəm cansağlığı və yeni uğurlar arzulayıb.

Valentina Matviyenko Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi görüşlərini məmnunluqla xatırlayıb, onun Azərbaycan-Rusiya dostluq münasibətlərinin inkişafında rolunu vurğulayıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirib.

***Prezidentin Mətbuat Xidməti***

## Birinci vitse-prezident Mehriban Əliyeva Bilgəh incəsənət məktəbinin açılışında iştirak edib



Avqustun 26-da Bakıda Bilgəh incəsənət məktəbinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Arzu Əliyeva açılışda iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli incəsənət məktəbində görülən işlər barədə məlumat verdi.

2

## *Azərbaycan-Özbəkistan:*
## iqtisadi imkanlar yeni perspektivlər vəd edir

Prezident İlham Əliyev bir neçə gün əvvəl Özbəkistanın Milli İnformasiya Agentliyinə verdiyi müsahibədə qeyd edib ki, 2025-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə üç dəfədən çox artaraq 795 milyon dollara çatıb: "Bu, əla göstəricidir. Bundan əlavə, 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb. Üç il əvvəl 500 milyon dollar məbləğində ümumi kapitalla təsis edilən Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti ölkələrimiz arasında investisiya əməkdaşlığının inkişafı üçün mühüm platformaya çevrilib. Şirkət həm Azərbaycanda, həm də Özbəkistanda iqtisadiyyatın müxtəlif sektorlarında perspektivli layihələrin maliyyələşdirilməsinə və həyata keçirilməsinə əhəmiyyətli töhfə verir".

Bu dinamika göstərir ki, iki ölkənin qarşılıqlı ticarət potensialı hələ tam istifadə olunmayıb və 1 milyard dollarlıq hədəf real iqtisadi imkanlara əsaslanır.



Azərbaycan-Özbəkistan iqtisadi münasibətlərində əsas məsələ ticarət dövriyyəsinin strukturunun və məzmununun dəyişdirilməsidir. Ona görə də yeni məhsulların qarşılıqlı bazarlara çıxarılması və birgə istehsal imkanlarının artırılması vacibdir. Bu baxımdan sənaye kooperasiyasının genişləndirilməsi xüsusi önəm kəsb edir. Səfər çərçivəsində yeni sənaye əməkdaşlığı istiqamətləri müəyyənləşdirilib. Energetika, geologiya, kimya sənayesi, tikinti, maliyyə, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq layihələrinin genişləndirilməsi nəzərdə tutulub. Unutmaq olmaz ki, iki ölkənin biznes dairələri arasında əlaqələrin gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi iqtisadi münasibətlərin özəl sektor səviyyəsində də inkişafına imkan yaradır.

İki dövlətin iqtisadi əlaqələrinin mühüm istiqamətlərindən biri də qarşılıqlı investisiyaların artırılmasıdır. Bu sahədə Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti xüsusi əhəmiyyət daşıyır. Şirkət 2023-cü ildə yaradılıb və hər iki ölkədə, eləcə də gələcəkdə üçüncü ölkələrdə perspektivli layihələrin maliyyələşdirilməsi üçün mühüm platformaya çevrilib. İnvestisiya şirkətinin fəaliyyəti Azərbaycan-Özbəkistan iqtisadi münasibətlərinin, sadəcə, "alıcı-satıcı" modelindən çıxaraq, istehsal və kapital əməkdaşlığı mərhələsinə keçməsinə imkan verir. Bu, xüsusilə sənaye, kənd təsərrüfatı, energetika, tikinti, turizm, kimya və digər sahələrdə birgə layihələrin maliyyələşdirilməsi baxımından əhəmiyyətlidir.

4

# Birinci vitse-prezident Mehriban Əliyeva Bilgəh incəsənət məktəbinin açılışında iştirak edib

Əvvəli 1-ci səh.

Bildirildi ki, Bilgəh incəsənət məktəbi Bilgəh qəsəbə Mədəniyyət Evi, 27 nömrəli uşaq musiqi məktəbi və Sabunçu rayon mərkəzləşdirilmiş kitabxana sisteminin 10 nömrəli kitabxana filialının fəaliyyətlərinin optimallaşdırılması nəticəsində yaradılıb.

Qeyd edək ki, Bilgəh qəsəbə Mədəniyyət Evinin inzibati binası 1987-ci ildə inşa olunduğundan ötən müddət ərzində köhnələrək istifadəyə yararsız vəziyyətə düşmüşdü. Bu səbəbdən Heydər Əliyev Fondu tərəfindən 220 yerlik yeni məktəb binası inşa olunub.

Zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə təchiz edilən təhsil müəssisəsinin binasında musiqi, nəzəriyyə, xor, fotoqrafiya, rəssamlıq, heykəltaraşlıq, dizayn otaqları, xoreoqrafiya və akt zalları, qarderob, kitabxana və yeməkxana var.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri də görülüb.









# Bakının Nəsimi rayonunda yeni körpələr evi-uşaq bağçası istifadəyə verilib

**Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Bakının Nəsimi rayonunda 352 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov körpələr evi-uşaq bağçasında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 116 yerlik uşaq bağçası kimi istifadəyə verilən müəssisə 1972-ci ildən eşitmə qabiliyyəti pozulmuş uşaqların respublika ixtisaslaşdırılmış körpələr evi-uşaq bağçası kimi fəaliyyət göstərib. Hazırda isə 352 saylı körpələr evi-uşaq bağçası kimi fəaliyyətini davam etdirir.

Heydər Əliyev Fondunun dəstəyi ilə binada əsaslı təmir işləri aparılıb və yeni korpus inşa olunub.

Yeni körpələr evi-uşaq bağçasında eşitmə qabiliyyəti pozulmuş uşaqlar üçün xüsusi qrup saxlanılmaqla, uşaqların məktəbəqədər təhsil və tərbiyə almalarına hər cür şərait yaradılıb. Eşitmə qabiliyyəti pozulmuş uşaqlar üçün burada 36 yerlik ikimərtəbəli əlavə korpus inşa olunub.

Körpələr evi-uşaq bağçasında surdoloq, oyun və yataq otaqları, idman, tədbir, musiqi və rəqs zalları, tibb, geyinib-soyunma və müəllimlər otaqları var. Surdoloq kabinetləri, dərs, oyun otaqları zəruri avadanlıqlar və mebellərlə təmin olunub.

Uşaqlar üçün açıq havada oyun və idman meydançaları salınıb, söhbətgahlar quraşdırılıb.







# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya



Hörmətli Mehriban Arif qızı!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Azərbaycan xalqının rifahının təmin olunmasına, təhsil, elm, mədəniyyət və incəsənətin inkişafına, Azərbaycanın zəngin tarixi-mədəni irsinin qorunub saxlanılmasına və təbliğinə yönəlmiş çoxşaxəli dövləti və ictimai fəaliyyətinizə dərin hörmətimi və səmimi heyranlığımı ifadə etmək istəyirəm.

Özbəkistanda Sizə xüsusi rəğbət və ehtiram bəslənilir, Özbəkistan-Azərbaycan münasibətlərinin ardıcıl şəkildə dərinləşdirilməsinə göstərdiyiniz daimi həssas diqqət yüksək qiymətləndirilir.

Ailələrimiz arasında mövcud səmimi və mehriban münasibətlər xüsusi sevinc hissi doğurur. Əminəm ki, bu dostluq və qarşılıqlı hörmət mühiti hazırda Özbəkistanı və Azərbaycanı birləşdirən həqiqi qardaşlıq bağlarının parlaq ifadəsidir.

Əminəm ki, Sizin şəxsi iştirakınız bundan sonra da ölkələrimiz arasında humanitar və mədəni əlaqələrin möhkəmləndirilməsinə, xalqlarımızın yaxınlaşmasına və zəngin ümumi irsimizin gələcək nəsillər üçün qorunub saxlanılmasına hərtərəfli töhfə verəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji, xoşbəxtlik və firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh və davamlı tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əziz və hörmətli Mehriban xanım!

İcazə verin, Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edim, ən səmimi və xoş arzularımı çatdırım.

Qəlbi ən gözəl keyfiyyətlərlə, bənzərsiz zəriflik və sonsuz xeyirxahlıqla dolu olan Sizin kimi bir insanla yaxın dostluğumu və səmimi münasibətlərimi son dərəcə dəyərli hesab edirəm.

Sizin ictimai və dövlət həyatındakı çoxşaxəli fəaliyyətiniz təkcə Azərbaycanda deyil, bütün dünyada dərin hörmət və rəğbət qazanmışdır. Zərif qadın incəliyini və sarsılmaz iradəni özündə təcəssüm etdirən nurlu obrazınız Azərbaycan xalqının qürur mənbəyi, dövrümüzün layiqli və ruhlandırıcı qadınının parlaq nümunəsidir.

Azərbaycan Respublikası Prezidentinin Özbəkistana tarixi dövlət səfəri çərçivəsində Sizinlə bu yaxınlarda baş tutan görüş, həmçinin əbədi şəhər Buxarada birlikdə keçirdiyimiz məhsuldar və sevincli saatlar qəlbimdə ən isti və parlaq təəssüratlar buraxmışdır.

Uzun illər ərzində əsl bacı yaxınlığına əsaslanan münasibətlərimizin övladlarımız arasında, indi isə nəvələrimiz arasında da davam etməsi məni səmimi-qəlbdən sevindirir.

Əminəm ki, ortaq dəyərlərə və zəngin mədəni irsə əsaslanan əlaqələrimiz ölkələrimiz və qardaş xalqlarımız arasında dostluq bağlarını bundan sonra da yeni məzmunla zənginləşdirəcək.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ailə səadəti, rifah və firavanlıq arzulayıram. Qoy nəcib arzularınız qardaş Azərbaycan xalqının rifahı naminə daim yüksək nailiyyətlərə və uğurlara gətirib çıxarsın.

*Səmimi hörmətlə,*

***Ziroat MİRZİYOYEVA,***
***Özbəkistan Respublikasının birinci xanımı***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, Sizə və yaxınlarınıza möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Sizin genişmiqyaslı dövləti, ictimai və xeyriyyəçilik fəaliyyətiniz, Azərbaycan cəmiyyətinin həyatında əsas dəyərlərin qorunub saxlanılmasına göstərdiyiniz səmimi qayğı, həqiqətən, heyranlıq doğurur və hörmətə layiqdir. Həmçinin Sizin rəhbərliyinizlə beynəlxalq səviyyədə həyata keçirilən genişmiqyaslı humanitar layihələr, yaradıcı əməyinizə verilmiş nüfuzlu mükafatlar, həqiqətən, səxavətli və qızıl qəlbə malik, xeyirxah işlərə və insanlara təmənnasız yardıma hər zaman açıq olan qeyri-adi şəxsiyyətinizin miqyasını təsdiq edir.

Sizə nəcib amallarınızın bütün sahələrdə həyata keçirilməsinə yönəlmiş davamlı uğurlar, qarşıya qoyduğunuz məqsədlərə nail olmaq üçün tükənməz ilham və güc arzulayıram.

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi,***
***"Rusiya - İslam dünyası" Strateji***
***Baxış Qrupunun sədri***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı!

Sizə olan dərin ehtiramımı və doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizə möhkəm cansağlığı, rifah, tükənməz enerji, xoşbəxtlik və çoxşaxəli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın möhkəmləndirilməsinə göstərdiyiniz dəstəyə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Əminəm ki, ikitərəfli qarşılıqlı fəaliyyət bundan sonra da uğurla inkişaf edəcək, yeni birgə təşəbbüs və layihələrin həyata keçirilməsinə imkan yaradacaq.

*Hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan***
***vilayətinin qubernatoru***

❖ ❖ ❖

Dəyərli və mehriban bacım!

Böyük ehtiram və sevinc hissi ilə Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm.

Sizin sosial, mədəni və beynəlxalq sahələrdəki üstün, müdrik və fədakar fəaliyyətiniz hər zaman ilhamverici və qürur mənbəyi olmuşdur.

Qonşu, dost və qardaş ölkələr olan İran ilə Azərbaycan Respublikası arasında dərin dostluq və qardaşlıq köklərinin mövcudluğundan, həmçinin iki ölkənin qadınlarının bu müştərək irsin qorunmasında mühüm rol oynamasından böyük məmnunluq duyuram.

Bu əlamətdar və xoş gündə Sizə səmimi-qəlbdən bərəkətli uzun ömür, möhkəm cansağlığı və davamlı müvəffəqiyyətlər, dost və qardaş Azərbaycan Respublikasına isə tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***Zəhra PEZEŞKİAN***

❖ ❖ ❖

Çox hörmətli Mehriban Arif qızı!

Sizi doğum gününüz münasibətilə təbrik edirəm. Bu gün Sizə sonsuz hörmətimi və dəyərli şəxsiyyətinizə, doğma Azərbaycana yorulmaz xidmətinizə səmimi heyranlığımı ifadə etmək üçün gözəl fürsətdir.

Sizin həyat yolunuz ən yüksək peşəkarlığın, müdrikliyin və mənəvi səxavətin ahəngdar vəhdətinin heyrətamiz nümunəsidir. Heydər Əliyev Fondunun prezidenti vəzifəsində zəngin mədəni irsin qorunmasına və genişmiqyaslı sosial proqramların həyata keçirilməsinə yönəlmiş fəaliyyətiniz Sizə xalqın dərin ehtiramını və sevgisini qazandırmışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və birinci xanımı kimi Siz ləyaqətin, məsuliyyətin və ölkənin gələcəyinə yorulmaz qayğının təcəssümüsünüz. Sizin enerjiniz və quruculuq səyləriniz Azərbaycan dövlətçiliyinin inkişafı və onun beynəlxalq nüfuzunun möhkəmləndirilməsi üçün sarsılmaz təməl rolunu oynayır.

İcazə verin, bu əlamətdar gündə Sizə və yaxınlarınıza möhkəm cansağlığı, uğurlar, tükənməz enerji, xoşbəxtlik və rifah arzulayım. Qoy bütün nəcib təşəbbüsləriniz və planlarınız uğurla həyata keçsin, insanlara bəxş etdiyiniz sevgi və qayğı Sizə qat-qat artıq qayıtsın. Sizə, Sizin böyük və gözəl ailənizə sülh, firavanlıq arzulayıram.

*Dərin hörmətlə və ən xoş arzularla,*
*Həmişə Sizin,*

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb***
***Elmləri Akademiyasının akademiki,***
***"Dostluq", "Şöhrət" və "Şərəf" ordenləri laureatı,***
***Azərbaycan Respublikası***
***Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya***
***Federasiyasının dövlət mükafatı laureatı,***
***Rusiyanın Əməkdar elm xadimi***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin həyatınız və fəaliyyətiniz Vətəninizə fədakar xidmətin, humanist ideallara sədaqətin və Azərbaycan xalqının mənəvi irsinə dərin ehtiramın nümunəsidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində Siz ölkənin sosial-iqtisadi inkişafına, ictimai həmrəyliyin möhkəmləndirilməsinə və vətəndaşların həyat keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verirsiniz.

Fəaliyyətiniz məsuliyyət, ardıcıllıq və insanları mühüm quruculuq məqsədləri ətrafında birləşdirmək bacarığı ilə səciyyələnir.

Sizin uzun illər ərzində həyata keçirdiyiniz humanitar və xeyriyyəçilik fəaliyyəti xüsusilə təqdirəlayiqdir.

Rəhbərlik etdiyiniz Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət və sosial dəstək sahələrində genişmiqyaslı layihələr həyata keçirir.

Bu təşəbbüslər sayəsində uşaqlar və ailələr yardım alır, tarixi abidələr qorunur, məktəblər və tibb müəssisələri açılır, Azərbaycanın zəngin mədəni irsi isə beynəlxalq aləmdə daha geniş tanınır.

Sizi güclü dövlət xadimi, yüksək mədəniyyətə və nadir şəxsi cazibəyə malik insan kimi tanıyırlar.

Siz ölkəyə məsuliyyətli xidmətinizi ailəyə, milli ənənələrə və əbədi mənəvi dəyərlərə qayğıkeş münasibətlə layiqincə uzlaşdırırsınız.

Hörmətli Mehriban Arif qızı, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və tükənməz enerji arzulayıram.

*Hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***Rusiyanın "SAFMAR Qrupu" Səhmdar***
***Cəmiyyətinin prezidenti***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı!

VTB Bankın İdarə Heyəti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Uzun illərdir ki, Siz məsul vəzifələrdə çalışaraq Azərbaycanın tərəqqisinə yorulmadan xidmət edirsiniz. Sizin fəaliyyətiniz ən geniş səviyyədə yüksək qiymətləndirilmişdir.

Hörmətli Mehriban Arif qızı, Sizə bütün təşəbbüslərinizin uğurla həyata keçirilməsini, möhkəm cansağlığı, sülh və ailənizə firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Andrey KOSTİN,***
***Rusiyanın "VTB Bank" Publik Səhmdar***
***Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Azərbaycanda idmanın, mədəniyyətin və təhsilin inkişafına verdiyiniz əvəzsiz töhfəyə, həmçinin ölkə vətəndaşlarının rifahı və gənc nəslin gələcəyi naminə göstərdiyiniz yorulmaz fəaliyyətə görə Sizə dərin hörmətimi ifadə edirəm.

Sizin rəhbərliyinizlə və təşəbbüsünüzlə uşaq və yeniyetmə idmanının dəstəklənməsinə, bədən tərbiyəsinin inkişafına və milli-mədəni irsin irəlilədilməsinə yönəlmiş mühüm layihələr həyata keçirilir. Təhsil, mədəniyyət və elm sahələrində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsində, həmçinin Azərbaycanın dünya arenasında nüfuzunun artırılmasında fəaliyyətiniz mühüm rol oynayır.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, dövlətə və xalqa xidmət yolunda yeni mühüm nailiyyətlər arzulayıram. Qoy həyatınızın hər yeni ili Sizə sevinc, peşəkar uğurlar və ailənizə firavanlıq gətirsin.

*Dərin hörmətlə,*

***Alina KABAYEVA,***
***"Nebesnaya qratsiya" Beynəlxalq İdmana Dəstək***
***Assosiasiyasının prezidenti, Olimpiya çempionu***

❖ ❖ ❖

Çox hörmətli Mehriban xanım!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin həyatınız ölkənizə və xalqınıza fədakar xidmətin nümunəsidir. Sizin rəhbərliyinizlə möhtəşəm sosial proqramlar həyata keçirilir, səhiyyə, təhsil və mədəniyyət inkişaf edir, ölkənin beynəlxalq nüfuzu möhkəmlənir. Siz Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik edərək idmanın inkişafına, dünya səviyyəli idmançıların hazırlanmasına və nüfuzlu yarışların keçirilməsinə əvəzsiz töhfə vermisiniz.

Sizə həyatınızda daim sevinc arzulayıram. Özünüz üçün arzuladığınız hər şeyin Sizə nəsib olmasını diləyirəm. Hər zaman təravətli qalın, sağlam, xoşbəxt, gözəl və sevilən olun. Hər zaman, hər yerdə və hər işdə uğurlar Sizi müşayiət etsin. Böyük Azərbaycana, şəxsən Sizə, ailənizə və sevdiyiniz hər kəsə rifah və firavanlıq arzulayıram.

*Sonsuz hörmət və məhəbbətlə,*
*Həmişə Sizin,*

***İrina VİNER,***
***Rusiya Federasiyasının Əməkdar məşqçisi,***
***pedaqoji elmlər doktoru, professor***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin mərhəmət və humanizm idealları naminə yorulmaz fəaliyyətiniz, islam dünyasının zəngin mədəni və mənəvi irsinin qorunmasına göstərdiyiniz qayğı səmimi heyranlıq hissi doğurur.

Sizə möhkəm cansağlığı, tükənməz enerji və ailə səadəti arzulayıram. Qoy Uca Tanrı Sizin evinizə əmin-amanlıq, harmoniya və firavanlıq bəxş etsin.

*Dərin hörmətlə,*

***Alişer USMANOV,***
***rusiyalı sahibkar***

# Birinci vitse-prezident Mehriban Əliyeva Elmi-Tədqiqat Pediatriya İnstitutunu ziyarət edib













**Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunu ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezident Mehriban Əliyevaya institutun fəaliyyəti barədə məlumat verdi.

Qeyd olundu ki, Elmi-Tədqiqat Pediatriya İnstitutu bir əsrdən çoxdur uşaqların sağlamlığının qorunması kimi mühüm və nəcib işə xidmət edir.

Hazırda elmi-metodik mərkəz kimi fəaliyyət göstərən bu tibb müəssisəsi 1925-ci ildə 200 çarpayılıq uşaq xəstəxanasının bazasında təşkil olunub, 1927-ci ildə yenidən qurularaq Ana və Uşaqları Mühafizə İnstitutuna çevrilib. Burada uşaqların müalicə-profilaktikası ilə yanaşı, pediatriya sahəsində peşəkar tibbi kadrların hazırlanması, elmi-tədqiqatların aparılması, mövcud tibb təhsilinin təkmilləşdirilməsi həyata keçirilir. İnstitutda 255 çarpayılıq klinik şöbələr, elmi və bir çox paraklinik bölmələr var. Yenidoğulanların 60 çarpayılıq reanimasiyası və intensiv terapiyası şöbəsi respublika üzrə mərkəz funksiyasını yerinə yetirir.

Birinci vitse-prezident və qızları ziyarət zamanı institutda yaradılmış şəraitlə tanış olublar. Həmçinin gələcəkdə fəaliyyətin təkmilləşdirilməsi üçün instituta avadanlıqlar - süni ventilyasiya aparatları hədiyyə edilib.

# Heydər Əliyev Fondu uşaqlar üçün növbəti əyləncə tədbiri keçirib

**Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə avqustun 26-da xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün əyləncə tədbiri keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirə Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə şəhid olmuş qəhrəmanlarımızın övladları, valideyn himayəsindən məhrum və internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlar dəvət alıblar.

Şənlik uşaqlara xoş və unudulmaz gün yaşatmaq, onların asudə vaxtlarının səmərəli və maraqlı təşkilinə şərait yaratmaq, hər bir uşağın diqqət və qayğı ilə əhatə olunduğunu hiss etdirmək məqsədilə təşkil edilib.

İstirahət məkanlarına xüsusi avtobuslarla gələn uşaqlar gün ərzində müxtəlif əyləncəli proqramlarda, maraqlı oyunlarda iştirak edib, yaradıcılıq və ustad dərslərində bacarıqlarını nümayiş etdirib, rəqs edib və həmyaşıdları ilə birlikdə maraqlı vaxt keçiriblər.

Dəniz kənarında, yay ab-havasında keçirilən şənlikdə uşaqlar həm də hovuzda doyunca əyləniblər.

Əyləncələrdən zövq alıb, müxtəlif oyunlarda iştirak edən uşaqlar üçün nahar süfrəsi də təşkil olunub.

Ad günləri həmin tarixə təsadüf edənlər isə bu özəl günü həmyaşıdları ilə birlikdə şənlənərək qeyd ediblər.

Tədbirlərin yekununda gözəl istirahət günündən xatirə olaraq hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim olunub.

11 yaşlı Yunis Abbasov tədbirin onun üçün çox maraqlı keçdiyini bildirərək deyib: "Bu gün burada həmyaşıdlarımla birlikdə çox əyləndim. Birlikdə oyunlar oynadıq, güldük və xoş vaxt keçirdik. Ən çox dostlarımla bir yerdə olmaq mənə xoş gəldi. Belə bir tədbirdə iştirak etdiyim üçün çox sevinirəm".




















10 yaşlı Murad Əzimov isə gün ərzində müxtəlif əyləncələrdə iştirak etdiyini deyib. O qeyd edib: "Bu gün mənim üçün çox gözəl keçdi. Burada çoxlu maraqlı oyunlar oldu. Dostlarımla birlikdə əyləndik, yaddaqalan gün keçirdik. Burada olduğum üçün çox sevincliyəm".

Bu cür tədbirdə ikinci dəfə iştirak etdiyini söyləyən 10 yaşlı Mədinə Əzizli isə bildirib: "İkinci dəfədir iştirak edirəm. Bu dəfə də çoxlu oynadıq, hovuzda üzdük, rəqs etdik. Dostlarımla birlikdə bütün günü maraqlı keçirdik".

Uşaqlar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik edib, onlara göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildirib, tədbirin təşkilinə görə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, Heydər Əliyev Fondunun fəaliyyətində həssas kateqoriyaya aid olan uşaqların hərtərəfli qayğı ilə əhatə edilməsi xüsusi yer tutur. Fond valideyn himayəsindən məhrum, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqlar, həmçinin şəhidlərimizin bizə əmanət qalan övladları üçün mütəmadi olaraq əyləncəli proqramlar təşkil edir, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirir.



# Artan geosiyasi və geoiqtisadi güc

## Avrasiyanın yeni düzənini formalaşdırır

**Mərkəzi Asiya və Cənubi Qafqaz bu gün artıq bir-birindən ayrı, qapalı regionlar deyil. Xəritəyə baxanda aramızda Xəzər dənizi və coğrafi sərhədlər olsa da, reallıqda bu tam fərqli xarakter daşıyır. Azərbaycanın atdığı addımlar, qurduğu nəqliyyat və enerji infrastrukturu göstərir ki, ölkəmiz Mərkəzi Asiyanın ayrılmaz parçasıdır. Bu gerçəkliyi Prezident İlham Əliyev 23 avqustda Daşkənddə verdiyi bəyanatda da vurğulayıb: "Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşləri formatına qoşulması ilə bağlı tarixi qərar Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında vahid etimad, mehriban qonşuluq və qarşılıqlı bağlılıq məkanının formalaşdırılması istiqamətində mühüm addım oldu. Biz BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər strukturlar çərçivəsində əsas beynəlxalq platformalarda müttəfiqlik dialoqunu gücləndirərək diplomatik fəaliyyətimizi ardıcıl şəkildə əlaqələndiririk".**

Dövlətimizin başçısının bu sözləri Azərbaycanın regionda yaratdığı yeni geosiyasi reallığın, Cənubi Qafqaz ilə Mərkəzi Asiyanın tarixi bağlar üzərində qurulan və bugünkü çağırışlara adekvat cavab verən birliyinin, gücünün dəqiq xülasəsidir.

### "C5"dən "C6"ya yüksələn nüfuzlu tərəfdaşlıq

Azərbaycanın regionda aparıcı rola sahib olması əlverişli coğrafi mövqeyi, zəngin ənənəvi və qeyri-ənənəvi resursları ilə bağlıdır. Lakin o da reallıqdır ki, əsas səbəb illərdir dövlətimizin həyata keçirdiyi çoxşaxəli, balanslaşdırılmış xarici siyasət, beynəlxalq hüquqa sadiqlik və daxildə qurulan güclü infrastrukturdur.

Ötən il Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Azərbaycanın bu formata tamhüquqlu üzv seçilməsi də həyata keçirilən uzaqgörən siyasətin növbəti nəticəsidir. Bu addımla regional əməkdaşlıq "C5" formatından "C6" formatına keçdi. Yəni Mərkəzi Asiya beşliyi Azərbaycanı öz sırasına qəbul edərək Cənubi Qafqazla vahid iqtisadi-siyasi birlik formalaşdırdı.

Prezident İlham Əliyev bu inteqrasiyanın mahiyyətini Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsi zamanı bu cür izah edib: "Azərbaycan Mərkəzi Asiya ölkələri ilə siyasi dialoqun genişləndirilməsinə, iqtisadi əlaqələrin dərinləşdirilməsinə, nəqliyyat və kommunikasiya imkanlarının artırılmasına, həmçinin enerji və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir... ...Azərbaycanın bu prosesə fəal qoşulması nəticəsində əvvəllər "C5" adlanan əməkdaşlıq formatı faktiki olaraq "C6" formatına çevrilib, regional dialoq və strateji tərəfdaşlıq isə yeni məzmun və miqyas qazanıb".

Ölkəmizin rəhbərinin ifadə etdiyi bu yeni məna və miqyası dünya nəhəngi Çinin "Bir kəmər, bir yol" layihəsində Mərkəzi Asiyanın Avropaya çıxışının məhz Azərbaycanın geostrateji imkanları və yaratdığı tranzit şəraiti sayəsində mümkün və effektiv olması ilə əyani şəkildə görmüş oluruq.

### Qardaş ölkələrlə ikitərəfli əlaqələr dinamik inkişaf edir

Azərbaycan Mərkəzi Asiya ölkələrinin hər biri ilə ayrılıqda strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsində münasibətlər qurub.

Azərbaycanın Özbəkistanla əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu münasibətlər ölkə rəhbərlərinin uzaqgörən siyasəti, qarşılıqlı səfərləri və mütəmadi təmasları nəticəsində artan templə inkişaf edir. 2024-cü ilin avqustunda Daşkənddə imzalanmış Müttəfiqlik münasibətləri haqqında müqavilədən sonra bu ilin 23 avqustunda Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında Əbədi dostluq haqqında Müqavilə" əlaqələrin keyfiyyətcə yeni və ən yüksək mərhələsini özündə əks etdirir.

Diplomatik əlaqələri 1992-ci ildə qurulan Azərbaycan-Qazaxıstan arasında yaxın dostluq münasibətləri 2004-cü ildə Astanada imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2005-ci ildə Bakıda imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" ilə möhkəmləndirilib.

İki ölkə beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərir. Ölkələrimiz nəqliyyat, enerji və digər layihələr vasitəsilə regional əməkdaşlığı möhkəmləndirmək üçün mühüm işlər görür.

2025-ci ilin oktyabrında Astanada keçirilən Ali Dövlətlərarası Şuranın ikinci iclası və strateji tərəfdaşlıq müqaviləsinin 20 illiyi münasibətilə Azərbaycan ilə Qazaxıstan arasında imzalanan Birgə Bəyanat Xəzər üzərindən energetika və nəqliyyat marşrutlarının inteqrasiyasını sürətləndirdi.

Azərbaycan və Türkmənistan arasında münasibətlər strateji tərəfdaşlıq xarakterlidir. Azərbaycan və türkmən xalqları arasında tarixi köklərə malik dostluq və qardaşlıq əlaqələri bu tərəfdaşlığın əsasını təşkil edir.

Son illərdə həyata keçirilən ali səviyyəli qarşılıqlı səfərlər, aparılan dialoq və imzalanan normativ-hüquqi sənədlər tərəfdaşlığımızın inkişafını şərtləndirir.

Azərbaycan-Qırğızıstan əlaqələri də dinamik inkişaf edir.

Prezident İlham Əliyevin cari il iyulun 30-da Qırğızıstana reallaşan dövlət səfəri, Çolpon-Ata şəhərində baş tutan yüksəksəviyyəli danışıqlar, Azərbaycan-Qırğızıstan Dövlətlərarası Şurasının növbəti iclası və imzalanan sənədlər iki qardaş ölkə arasındakı münasibətlərin yeni inkişaf mərhələsini göstərir. Ölkələrimiz arasında Müttəfiqlik Münasibətləri haqqında Bəyannamə imzalanaraq siyasi, təhlükəsizlik və hərbi sahədə qarşılıqlı öhdəliklər ən ali hüquqi səviyyədə təsbit olundu.

Region ölkələrindən olan Tacikistan ilə münasibətlərimiz xüsusi əhəmiyyət kəsb edir və bu əlaqələr yüksələn xətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə ucalıb.

Xalqlarımız arasında tarixi, mədəni və dini bağlılıqlar, eləcə də ali səviyyədə mövcud olan qarşılıqlı hörmət və ehtirama söykənən siyasi əlaqələr Azərbaycan-Tacikistan əməkdaşlığının təməlini təşkil edir. Azərbaycan ilə Tacikistan beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edirlər.

Mərkəzi Asiya dövlətlərinin rəhbərlərinin işğaldan azad edilmiş ərazilərimizə səfər etmələri, Qarabağ və Şərqi Zəngəzura dost töhfələri bu birliyin, həmrəyliyin ən gözəl rəmzidir.

Azərbaycanın Mərkəzi Asiya ilə qurduğu bu sarsılmaz körpü təkcə regionumuz üçün deyil, Şərqlə Qərb arasında sülh, sabitlik və iqtisadi tərəqqi üçün qlobal əhəmiyyətə malik strateji uğurdur.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Azərbaycan-Özbəkistan: iqtisadi imkanlar yeni perspektivlər vəd edir

**Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri iki qardaş ölkə arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin həmçinin iqtisadi baxımdan daha da dərinləşdirilməsi ilə yadda qaldı. Səfərin nəticələrindən biri də 2030-cu ilədək iki ölkə arasında ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması üzrə proqramın qəbul edilməsi oldu. Bu sənəd Azərbaycan-Özbəkistan iqtisadi münasibətlərinin qarşıdakı illər üçün əsas istiqamətlərini müəyyənləşdirən mühüm yol xəritəsi kimi qiymətləndirilməlidir.**



Əslində, milyardlıq ticarətin müəyyənləşdirilməsi təsadüfi deyil. Son illər Azərbaycan və Özbəkistan arasında ticarət-iqtisadi əlaqələr sürətlə genişlənir. Prezident İlham Əliyev bir neçə gün əvvəl Özbəkistanın Milli İnformasiya Agentliyinə verdiyi müsahibədə qeyd edib ki, 2025-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə üç dəfədən çox artaraq 795 milyon dollara çatıb: "Bu, əla göstəricidir. Bundan əlavə, 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb. Üç il əvvəl 500 milyon dollar məbləğində ümumi kapitalla təsis edilən Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti ölkələrimiz arasında investisiya əməkdaşlığının inkişafı üçün mühüm platformaya çevrilib. Şirkət həm Azərbaycanda, həm də Özbəkistanda iqtisadiyyatın müxtəlif sektorlarında perspektivli layihələrin maliyyələşdirilməsinə və həyata keçirilməsinə əhəmiyyətli töhfə verir".

Bu dinamika göstərir ki, iki ölkənin qarşılıqlı ticarət potensialı hələ tam istifadə olunmayıb və 1 milyard dollarlıq hədəf real iqtisadi imkanlara əsaslanır.

Azərbaycan-Özbəkistan iqtisadi münasibətlərində əsas məsələ ticarət dövriyyəsinin strukturunun və məzmununun dəyişdirilməsidir. Ona görə də yeni məhsulların qarşılıqlı bazarlara çıxarılması və birgə istehsal imkanlarının artırılması vacibdir. Bu baxımdan sənaye kooperasiyasının genişləndirilməsi xüsusi önəm kəsb edir. Səfər çərçivəsində yeni sənaye əməkdaşlığı istiqamətləri müəyyənləşdirilib. Energetika, geologiya, kimya sənayesi, tikinti, maliyyə, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq layihələrinin genişləndirilməsi nəzərdə tutulub. Unutmaq olmaz ki, iki ölkənin biznes dairələri arasında əlaqələrin gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi iqtisadi münasibətlərin özəl sektor səviyyəsində də inkişafına imkan yaradır.

İki dövlətin iqtisadi əlaqələrinin mühüm istiqamətlərindən biri də qarşılıqlı investisiyaların artırılmasıdır. Bu sahədə Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti xüsusi əhəmiyyət daşıyır. Şirkət 2023-cü ildə yaradılıb və hər iki ölkədə, eləcə də gələcəkdə üçüncü ölkələrdə perspektivli layihələrin maliyyələşdirilməsi üçün mühüm platformaya çevrilib. İnvestisiya şirkətinin fəaliyyəti Azərbaycan-Özbəkistan iqtisadi münasibətlərinin, sadəcə, "alıcı-satıcı" modelindən çıxaraq, istehsal və kapital əməkdaşlığı mərhələsinə keçməsinə imkan verir. Bu, xüsusilə sənaye, kənd təsərrüfatı, energetika, tikinti, turizm, kimya və digər sahələrdə birgə layihələrin maliyyələşdirilməsi baxımından əhəmiyyətlidir.

Məsələn, son illər iki ölkə arasında sənaye kooperasiyasının müxtəlif istiqamətlərində layihələr həyata keçirilib. 2026-cı ilin avqustunda keçirilən tədbirlər çərçivəsində bank və maliyyə sektoru, tikinti materiallarının istehsalı, təhsil, yanacaqdoldurma infrastrukturu, turizm və yaşayış kompleksləri, mineral xammalın emalı və bağçılıq kimi sahələrdə yeni birgə layihələrə start verilib. Bu layihələr qarşılıqlı investisiyaların artırılması və biznes dairələri arasında əlaqələrin genişləndirilməsi baxımından mühüm potensiala malikdir.

Azərbaycan və Özbəkistan arasında iqtisadi əməkdaşlığın digər mühüm istiqaməti nəqliyyat və tranzit sahəsidir. Özbəkistanın Mərkəzi Asiyada, Azərbaycanın isə mühüm nəqliyyat marşrutları üzərində yerləşməsi iki ölkə arasında logistika sahəsində əməkdaşlığı çox əhəmiyyətli edir. Bu baxımdan, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun, yəni Orta dəhlizin inkişafı xüsusi əhəmiyyət daşıyır. Azərbaycan və Özbəkistan bu marşrutun imkanlarından daha səmərəli istifadə etməklə Mərkəzi Asiya ilə Qafqaz və Avropa arasında yükdaşımaların artırılmasına töhfə verə bilərlər. Dövlət başçıları da nəqliyyat və tranzit sahəsində əməkdaşlığın, logistika infrastrukturunun səmərəliliyinin artırılmasının və Trans-Xəzər dəhlizinin birgə inkişaf etdirilməsinin vacibliyini qeyd ediblər.

Bütün bunlar ticarət dövriyyəsinin artırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Çünki ticarətin həcmi qədər məhsulların bazarlara sürətli, təhlükəsiz və rəqabətqabiliyyətli qiymətlərlə çatdırılması da vacibdir. Nəqliyyat bağlantılarının yaxşılaşdırılması Azərbaycan və Özbəkistan şirkətlərinin qarşılıqlı ticarətini asanlaşdırmaqla yanaşı, üçüncü ölkələrə çıxış imkanlarını da genişləndirə bilər. Qardaş dövlətlərin iqtisadi strukturları bir sıra istiqamətlərdə bir-birini tamamlayır. Özbəkistanın böyük daxili bazarı, sənaye və kənd təsərrüfatı potensialı Azərbaycan şirkətləri üçün yeni imkanlar yaradır. Azərbaycanın Xəzər dənizinə çıxışı, inkişaf etmiş nəqliyyat infrastrukturu, enerji imkanları və beynəlxalq tranzit mövqeyi isə Özbəkistan məhsullarının yeni bazarlara çıxarılması baxımından üstünlük yaradır. Ona görə də 1 milyard dollarlıq ticarət dövriyyəsi hədəfi, sadəcə, statistik göstərici olmamalıdır. Ticarət nomenklaturasının genişləndirilməsi, neftdənkənar sahədə əməkdaşlığın artırılması, birgə istehsal müəssisələrinin yaradılması, investisiya layihələrinin sürətləndirilməsi və logistika imkanlarının daha fəal istifadəsi əsas prioritetlər kimi gündəlikdə qalmalıdır.

Əhəmiyyətli məqamlardan biri də odur ki, iki ölkə bu hədəfə çatmaq üçün əməkdaşlığın əsas istiqamətlərini artıq müəyyənləşdirib. Yəni Hökumətlərarası Komissiya, Birgə İnvestisiya Şirkəti, biznes şuraları, biznes forumları və regionlararası əməkdaşlıq mexanizmləri iqtisadi əlaqələrin daha sistemli şəkildə inkişafına xidmət edir. 2030-cu ilədək ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması üzrə qəbul edilmiş proqram da bu mexanizmlərin fəaliyyətini konkret hədəf ətrafında birləşdirir.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Azərbaycan-Özbəkistan müttəfiqliyi Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında yeni geoiqtisadi məkan formalaşdırır

**Azərbaycan-Özbəkistan münasibətlərinin son illərdə strateji müttəfiqlik səviyyəsinə yüksəlməsini yalnız ikitərəfli əlaqələrin inkişafı prizmasından qiymətləndirmək kifayət deyil. Bu yaxınlaşma, eyni zamanda Azərbaycanla Mərkəzi Asiya arasında son illərdə formalaşan daha geniş siyasi və geoiqtisadi əməkdaşlığın əsas elementlərindən biridir. Azərbaycanın 2025-ci ildə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşlərinə tamhüquqlu iştirakçı kimi qoşulması və "C5" formatının faktiki olaraq "C6"ya çevrilməsi bu prosesə artıq institusional xarakter verib. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də Azərbaycanın bu formata qoşulmasını Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında möhkəm körpünün və vahid əməkdaşlıq məkanının formalaşması baxımından qiymətləndirib.**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin baş məsləhətçisi Roza BAYRAMOVA** deyib.

Onun sözlərinə görə, bu kontekstdə Azərbaycan-Özbəkistan müttəfiqliyinin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, iki ölkə Xəzərin şərq və qərb istiqamətlərində formalaşan nəqliyyat, enerji və investisiya əlaqələrinin əsas iştirakçıları sırasındadır. Özbəkistan Mərkəzi Asiyada böyük iqtisadi və demoqrafik potensiala, Azərbaycan isə Xəzər üzərindən Cənubi Qafqaz, Türkiyə və Avropa istiqamətinə çıxışı təmin edən mühüm nəqliyyat-logistika imkanlarına malikdir.

"Bu imkanların birləşdirilməsi Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında əməkdaşlığı ayrı-ayrı ikitərəfli layihələr səviyyəsindən daha sistemli geoiqtisadi qarşılıqlı asılılıq mərhələsinə keçirə bilər. Prezident İlham Əliyevin Çolpon-Atada qeyd etdiyi kimi, Azərbaycan və Mərkəzi Asiya ölkələri artıq faktiki olaraq vahid geosiyasi və geoiqtisadi məkan formalaşdırır", - deyə R.Bayramova vurğulayıb.

Məsləhətçi qeyd edib ki, bu prosesdə Orta dəhliz əsas birləşdirici xətt olaraq qalır. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun gələcəkdə Orta dəhliz və Zəngəzur istiqamətində formalaşan TRIPP bağlantısı ilə inteqrasiyası "Şərq-Qərb" nəqliyyat sisteminə əlavə imkanlar yarada bilər. Prezident İlham Əliyev son müsahibəsində bu üç istiqamətin inteqrasiyasının bütövlükdə region üçün yeni iqtisadi və tranzit imkanları yaradacağını xüsusi vurğulayıb.

R.Bayramova qeyd edib ki, burada vacib məqam Zəngəzur bağlantısının reallaşmasının Orta dəhlizin mövcud marşrutlarının əhəmiyyətini azaltmamasıdır. Əksinə, əlavə istiqamətin yaranması dəhlizin şaxələnməsini, yükdaşımaların çevikliyini və ümumi dayanıqlığını artırır. Beləliklə, Mərkəzi Asiyadan Azərbaycan ərazisinə daxil olan yüklərin Qərbə çıxışı üçün alternativlərin sayı genişlənir və Azərbaycanın müxtəlif nəqliyyat xətlərini birləşdirən regional logistika qovşağı kimi rolu daha da güclənir. Bütün bunlar Türk Dövlətləri Təşkilatının da regional roluna təsir edir. Azərbaycan və Özbəkistan TDT çərçivəsində nəqliyyat, energetika, rəqəmsallaşma və ticarətin asanlaşdırılması kimi praktik istiqamətlər üzrə əməkdaşlığın əsas tərəfdarlarıdır.

"Orta dəhlizin inkişafı, yeni dəmir yolu bağlantıları, elektron icazə və e-CMR kimi rəqəmsal mexanizmlərin tətbiqi TDT-ni yalnız siyasi və mədəni həmrəylik platforması deyil, eyni zamanda real iqtisadi bağlantılar yaradan regional əməkdaşlıq mexanizminə çevirir. Bu baxımdan hesab edirəm ki, Bakı-Daşkənd müttəfiqliyinin güclənməsi, "C6" formatının formalaşması və yeni nəqliyyat bağlantılarının inkişafı bir-birini tamamlayan proseslərdir. Nəticədə, Azərbaycan və Mərkəzi Asiya arasında əməkdaşlıq daha institusional və qarşılıqlı əlaqəli xarakter alır, Xəzər isə iki regionu ayıran coğrafi məkan deyil, onları birləşdirən əsas nəqliyyat, enerji və iqtisadi bağlantı xəttinə çevrilir", - deyən ekspert fikirlərini yekunlaşdırıb.

# Nəqliyyat vasitələrinin sıxlığı aradan qaldırılıb

Azərbaycan-Gürcüstan sərhədində həyata keçirilən qarşılıqlı tədbirlər nəticəsində hər iki istiqamət üzrə nəqliyyat vasitələrinin sıxlığı aradan qalxmış, növbələr minimuma enmişdir.

Hazırda Azərbaycandan çıxış istiqamətində "Qırmızı Körpü" dövlət sərhədindən buraxılış məntəqəsində 330, "Mazımqara" dövlət sərhədindən buraxılış məntəqəsində isə 56 nəqliyyat vasitəsi növbə gözləyir.

***DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

# Laçında Şəhər Günü münasibətilə konsert təşkil olunub

**Mədəniyyət Nazirliyinin və Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə növbəti dəfə təntənəli şəkildə qeyd edilən Laçın Şəhəri Günü çərçivəsində konsert proqramı olub.**



AZƏRTAC xəbər verir ki, Həkəri çayının sahilində qurulmuş əsas səhnədə təqdim olunan konsert proqramını tanınmış mədəniyyət və incəsənət xadimləri, doğma yurdlarına qayıdan laçınlı sakinlər və çoxsaylı qonaqlar izləyiblər.

Proqramda Azərbaycanın tanınmış incəsənət nümayəndələrinin iştirakı ilə "Qarabağ", "Mənim Azərbaycanım", "Sən qalibsən", "Laçın", "Ey, Vətən" və digər mahnılar səsləndirilib.

Həmçinin Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının təqdimatında "Uzundərə", "Vağzalı-Mirzəyi", "Yallı" və digər milli rəqs nümunələri təqdim olunub.





# Vətən deyəndə...





● Tarix yazan oğullar

## Yaralansa da, silahını yerə qoymadı

**Oğullar Vətəni qorumaq üçün doğulur. Yəqin elə buna görə də babalarımız "oğul düşmən çəpəridir" - deyiblər. Doğrudan da, yağılar yurda hücum çəkəndə, torpaqların işğalı üçün təhlükə yarananda Vətən qeyrəti çəkən oğullar silaha sarılaraq döyüşlərə atılırlar.**

Qoynunda dünyaya göz açdığı Vətəni qoruyan, onun uğrunda igidliklə vuruşan oğullarımızdan biri də Rövşən Əbdülhüseyn oğlu Abdullayevdir. O, 16 yanvar 1969-cu ildə Lerik rayonunun Gendov kəndində anadan olub. 7 yaşına çatanda Rövşən kəndlərindəki orta məktəbə gedib. Dərslərini yaxşı oxuyub, hazırlığı ilə sinifdə fərqlənənlərdən biri olub. Aldığı yüksək qiymətlərlə valideynlərini, doğmalarını sevindirib.

Beləcə, illər heç yerə tələsmədən öz karvanını sürüb. Rövşən orta məktəbi bitirdikdən sonra ailə vəziyyəti ilə əlaqədar Lənkərana köçüb. 1987-ci ildə oxumaq, təhsil almaq üçün Sankt-Peterburqdakı Ali Hərbi-Siyasi Məktəbə üz tutub. Biliyinə, savadına güvəndiyinə görə elə ilk cəhddən istəyinə çatıb, ali məktəbə qəbul olub. Dərs və məşğələlərdə həvəslə iştirak edib, hərbi bilikləri dərindən mənimsəyib, silahların və texnikaların sirlərinə yiyələnib. Vaxt keçdikcə təcrübə toplayıb və səriştəsi artıb.

Sanki dörd il bir göz qırpımında ötüb keçib. 1991-ci ildə Rövşən Abdullayev ali hərbi məktəbi yüksək qiymətlərlə bitirərək leytenant rütbəsi alır. Həmin günlər keçmiş ittifaq ərazisində milli münaqişə zəminində qanlı hadisələr baş qaldırmışdı. Keçmiş ittifaqda yaranmış bu qarışıqlıqdan istifadə edən Ermənistan Azərbaycana qarşı torpaq iddiasına düşmüşdü. Düşmən ölkənin silahlı qüvvələri həm Qarabağa, həm də sərhəd kəndlərimizə tez-tez hücum edərək qanlı hadisələr törədirdi. Günahsız insanları dədə-baba yurdlarından didərgin salır, amansızcasına qətlə yetirirdi. Demək olar ki, hər gün Qarabağdan və Ermənistanla sərhəd olan bölgələrdən qan qoxulu acı xəbərlər gəlirdi.

Azərbaycan üçün belə çətin bir vaxtda ali hərbi təhsilini başa vuran leytenant Rövşən Abdullayevi komandanlıq təyinatla Rostov şəhər Daxili İşlər Şöbəsinə göndərmək istəyir. Həmin günlər Rostovda da milli münaqişə zəminində qanlı hadislər tüğyan edirdi. Bu bölgədə də fəallaşan ermənilər sakit dayanmırdılar. Erməni işğalçılarının Qarabağa hücumlarının davam etdiyi bir vaxtda Rövşən Rostova getməkdən imtina edir. Böyük çətinliklə təyinatını Azərbaycana dəyişir.

Vətənə qayıdan R.Abdullayevi Daxili Qoşunlarda xidmətə qəbul edirlər. Rövşən xidmətə başlayır. Onu taqım komandiri təyin edirlər. Çox keçmir ki, gənc zabiti sərhədində gərgin döyüşlər gedən Zəngilana göndərirlər. Ön xəttə çatan kimi Rövşən ilk olaraq ərazi ilə tanış olur, mövqelərin yerini dəqiqləşdirir. Gərgin döyüşlərin daha çox hansı səmtdə getdiyini öyrənir. Kömək məqsədi ilə ən gərgin döyüşlər gedən istiqamətə yollanır. Ali təhsilli zabit kimi təcrübəsindən istifadə edərək döyüşdə az itki vermək üçün müdafiəni daha da möhkəmlədir. Əməliyyatlar zamanı uğur qazanmaq üçün düzgün və çevik qərarlar verir.

Gənc zabitin komandiri olduğu əsgərlər igidliyi və qəhrəmanlığı ilə ad çıxarırlar. Bu cəsur oğullar Zəngilan rayonunun kəndlərini göz bəbəkləri kimi qoruyurlar. Leytenant Rövşən Abdullayevin həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində düşmənin Qafan rayonu istiqmətində yerləşən bir neçə mühüm strateji əhəmiyyətli mövqeləri darmadağın



edilir. Erməni işğalçıları ağır itkilər verərək bu istiqamətdən geri çəkilməyə məcbur olurlar.

Vaxt keçdikcə döyüşlər daha da qanlı xarakter alırdı. Xaricdəki havadarlarına, erməni terror təşkilatlarına arxalanan işğalçılar daha da güclənərək hücumlarını artırırdılar. 1993-cü il sentyabrın 13-də qəsbkarlar əvvəlki günlərdəkindən də böyük qüvvə ilə qəflətən Zəngilanın Qazançı kəndi üzərinə hücuma keçirlər. Düşmənin ön mövqelərə hücum etdiyi barədə xəbər verilən kimi Rövşən əsgərləri ilə bərabər vaxt itirmədən hərbi maşınlarla Qazançı kəndini müdafiə edən qüvvələrin köməyinə tələsir.

Döyüşçülər Qazançıya çatmağa 5 kilometr qalmış gözlənilmədən qəsbkarların PDM-i və quldur dəstələri ilə qarşılaşırlar. Köməyə gedənlər elə buradaca mövqe tutub döyüşməyə başlayırlar. Daha əlverişli yerdə dayanmış işğalçılar Rövşəngili atəşə tuturlar. Güllələr zabit və əsgərlərimizin üstünə dolu kimi yağır. Gənc zabit döyüşün gərginliyindən, ağırlığından hiss edir ki, düşmənin hücumu belə davam etsə, üstlərinə dayanmadan atəş açılsa, itkiləri çox olacaq. Qarşılaşacağı itkilərdən xilas olmaq üçün taqım komandiri şəxsi heyətə döyüşə-döyüşə yaxınlıqdakı meşəyə doğru çəkilmək əmri verir.

Yaranmış şəraitə görə bu döyüş əmrini verdikdən sonra Rövşən özü təkbaşına düşmənin qarşısını kəsmək istəyir ki, şəxsi heyət meşənin qalınlığına çəkilsin. Bunun üçün yağıların üstünə dayanmadan atəş açır. Qəsbkarları hücümlarını genişləndirməyə imkan verməməyə çalışır. Erməni yaraqlıları işğal məqsədlərinə çata bilməyəcəklərini görüb daha da quduzlaşırlar. Çətinliklə də olsa, irəliləməyə, kəndi işğal etməyə çalışırlar. Düşmən hücumunu dayandırmağa çalışan Rövşən əvvəlcə qolundan, sonra isə ayağından ağır yaralanır. Buna baxmayaraq, silahı yerə qoymur, döyüşünü davam etdirir. Amma bu da çox çəkmir. Çoxlu qan itirdiyinə görə getdikcə zəifləyir və huşunu itirir.

Özlərini təhlükəyə atan döyüşçülər böyük çətinliklə yaralanmış komandirlərini döyüş meydanından çıxarmağı bacarırlar. Vaxt itirmədən onu Zəngilan rayon xəstəxanasına çatdırırlar. Təəssüf ki, həkimlərin ciddi səyinə baxmayaraq, Rövşənin həyatını xilas etmək mümkün olmur. Torpaqlarımızın müdafiəsinə atılmış Rövşən Abdullayev 13 sentyabr 1993-cü ildə gözlərini əbədi olaraq yumur. Cəsur döyüşçü 23 yaşında - həyatının ən parlaq dövründə şəhidlik zirvəsinə ucalır. Yaxınlarının, doğmalarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Lənkəran şəhər qəbiristanlığında dəfn edilir.

Torpaqlarımızın müdafiəsi zamanı göstərdiyi igidliyə, Vətən qarşındakı müstəsna xidmətlərinə görə Rövşən Əbdülhüseyn oğlu Abdullayev Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 yanvar 1995-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülür.

Xalqımız torpaqlarımızın azadlığı uğrunda vuruşmuş qəhrəmanları heç vaxt yaddan çıxarmır. Adını əbədiləşdirir, xatirəsini hörmətlə anır, Azərbaycanın Milli Qəhrəmanı Rövşən Abdullayev kimi. Lənkəran şəhərinin mərkəzində qəhrəmanın büstü ucaldılıb. Büstünün ətrafında salınmış parka onun adı verilib. Lənkəran və Astara şəhərlərindəki küçələrdən biri, həmçinin qoynunda dünyaya göz açdığı Lerik şəhərindəki mədəniyyət evi Rövşən Abdullayevin adını daşıyır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Vətən zirvəsini fəth edənlər

## Gənclərimizin vətən sevgisi - ölkəmizin sərvəti

**Ziya Təhməzov 1989-cu il noyabrın 6-da Tərtərdə doğulub. 2006-cı ildə şəhər 2 saylı məktəb-liseyi yaxşı qiymətlərlə bitirib və elə həmin il Odlar Yurdu Universitetinə qəbul olub. Lakin təhsil ödənişli olduğu üçün bir müddətdən sonra universitetdən çıxıb. 2007-ci ildə Mingəçevir Turizm Kollecinə daxil olub.**

Bir il sonra həqiqi hərbi xidmətə yollanıb, 2009-cu ilin iyulunda ordudan təxris olunub və yarımçıq qalmış təhsilini davam etdirib. 2011-ci ildə kolleci bitirərək öz ixtisası üzrə çalışmağa başlayıb. Lakin Ziya başa düşürdü ki, sakit, rahat yaşaya bilmir. Ona görə yox ki, problemləri vardı. Ona görə ki, torpaqlarının 20 faizindən çoxu işğal altında olan bir ölkənin gənci olmağı qəbul edə bilmirdi. Həmin illər gənclərin əksəriyyəti Ziya kimi düşünür və hərb yolunu seçirdilər.

2013-cü ildə Ziya Təhməzov Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində gizirlik kursunu bitirdi və müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başladı. Qarşıda onu od-alov içində keçən, qan qoxuyan, dost itkisi ilə ürək parçalayan 10 il gözləyirdi. Ziya deyir ki, baş verən hadisələrin 10 ilə necə sığdığını özü də başa düşmür, çünki hər gün 100 ilə bərabər olub. Bu illərdə ağrı-acı nə qədər çox olsa da, bunların içində onları yaşadan, sonsuz qüvvə verən, addım-addım irəli aparan qazanılan qələbələr idi.

Qələbəni əldə etmək üçün ordumuzun hər bir əsgəri kimi Ziya da uzun və çətin hazırlıq yolu keçdi. İndi onun sənədlərinin arasında bu yolu təsdiqləyən onlarca müxtəlif sertifikat var. Onlardan biri və keçmiş döyüşçü üçün xüsusilə böyük əhəmiyyəti olan raket qurğusunu idarə etməsi haqqında aldığı sənəddir. Bu barədə özü belə deyir: "Qurğu döyüşdə əsgərlərimizin çox köməyinə gəlirdi. 44 günlük Vətən müharibəsində şəhid olan silahdaşlarım Aslan Hüseynov və Ruslan Şahbazov onun dilini o qədər mükəmməl öyrənmişdilər ki, düşmən bu səsi eşidəndə meydandan qaçırdı".

Ermənilərlə mübarizədə dönüş nöqtəsi olan, xalqımızın mübarizə əzmini, ordumuzun gücünü nümayiş etdirən Aprel döyüşləri Ziya kimi gənclərin hesabına Qələbəmizlə başa çatdı. İllər ötsə də, hər birimiz cəmi bir neçə günlük döyüşlərin həyəcanını və sevincini yaxşı xatırlayırıq. Ziya deyir ki, 2016-cı ilin aprel ayında xidmət etdiyi hərbi hissə Tərtər rayonunun Qapanlı kəndindəydi: "Qapanlı o kənddir ki,



30 il ərzində mərdliklə ermənilərlə üzbəüz yaşadı və dayandı, insanlar olmazın əziyyət çəksələr də, ev-eşiklərini tərk etmədilər. Həmin günlərdə bu kənddə yerləşən hərbi hissə Talış kəndinin düşməndən azad edilməsi uğrunda gedən döyüşlərə qatıldı. Bu, elə bir döyüş idi ki, atəş səsləri qulaqlarımızda musiqi kimi səslənirdi. İllərlə ürəyimizdə saxladığımız qisas hissini artıq cilovlamaq lazım deyildi. Əlimizdə müasir silahlar və döyüş sursatları vardı. Bu döyüşdə qarşıya qoyulan bütün tapşırıqlar icra olundu, mühüm strateji yüksəkliklər düşməndən azad edildi. Xalqın orduya və öz əsgərinə inamı artdı".

44 günlük Vətən müharibəsində Ziyanın döyüş yolu Aşağı Çaylıdan başladı. Savaş ərzində Ziya idarə etdiyi qurğu ilə düşmənin 7 tankını, 2 BMP-sini, şəxsi heyətlə dolu "KamAZ" maşınını məhv etdi, "Kornet" raket kompleksini 8 raketi ilə birlikdə qənimət kimi ələ keçirdi və öz silahlarından onların öz başına od yağdırdıqdan sonra həmin qəniməti təhvil verdi.

Deyir ki, cəbhədə baş verənləri unutmaq mümkün deyil, o günlərin hər anı yaddaşında qalıb. Ən çox xatırladığı isə Qüllədə yerləşən düşmən postunun şəhid vermədən alınmasıdır. Həmin döyüşə sonradan şəhid olmuş və ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüş polkovnik-leytenant Əfqan Əbdürrəhmanov rəhbərlik edirdi. Ziya şəhidlik zirvəsinə ucalan yoldaşlarının hər birini böyük sevgi ilə xatırlayır: "Bu gün azad ölkədə, azad torpaqda yaşayan insanlar, xüsusən gənclərimiz unutmasınlar ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qələbəni göz qırpmadan ölümə gedən, canından, sağlamlığından keçən oğlanlar qazanıblar. O vaxt hətta yaralılar da döyüş meydanını tərk edib hospitala getmirdilər, qələbəyədək döyüşmək istəyirdilər". Ziya özü də yaxınlığında partlayan mərmi nəticəsində ayağından yaralanıb, ancaq yoldaşlarını tərk etməyib. Elə oradaca yarasını sarıtdırıb, sevimli qurğusu ilə düşməni torpaqlarımızdan qovmaqda davam edib.

Veteran 2022-ci ildə sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədində törədilən genişmiqyaslı təxribatların qarşısının alınmasında da iştirak edib. O həmçinin 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi antiterror əməliyyatının iştirakçılarından olub. Keçmiş döyüşçü deyir:

- 2023-cü il oktyabrın 25-də Prezident, Ali Baş Komandan İlham Əliyev Xankəndinin mərkəzi meydanında Azərbaycan bayrağını qaldırdı. Bu, ölkəmizin suverenliyi və ərazi bütövlüyünün bərpası demək idi. Həmin müqəddəs missiyanın yerinə yetirilməsində azacıq da olsa payım olduğu üçün qürur duyuram. Arzu edirəm ki, böyüyən gənc nəsil vətəni bizim kimi sevsin, qorusun və inkişaf etdirsin.

Ziya Təhməzovun sinəsini bəzəyən yüksək mükafatlar - "Suqovuşanın azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Qüsursuz xidmətə görə", "Hərbi xidmətdə fərqlənməyə görə", "Döyüşlərdə fərqlənməyə görə", "Azərbaycan Ordusunun 90 illiyi" və "Azərbaycan Ordusunun 100 illiyi" medallarının hər biri onun keçdiyi şərəfli yolu əks etdirir.

Bu gün veteran kiçik sahibkarlıqla məşğuldur. Ailəsində iki övlad - Ayişə və Tunar böyüyür. Onlar hələ məktəblidirlər. Hər bir valideyn kimi Ziyanın da övladları ilə bağlı çoxlu arzusu var. Deyir ki, ən böyük arzusuna çatıb - onlar təhlükəsiz şəraitdə, dinc səma altında və ən əsası ərazisi işğaldan azad olunmuş Azərbaycanda böyüyürlər.

Keçmiş döyüşçü Tərtər rayonunda şəhid ailələrinə, qazilərə və veteranlara göstərilən qayğıdan böyük razılıq hissi ilə danışır. Deyir ki, rayon rəhbəri daim onların yanındadır. Hər bir ailənin qayğıları ilə yaxından maraqlanır və lazımi kömək göstərir. Bu təbəqədən olanlar Müstəqim müəllimi öz doğmaları hesab edirlər. Tərtər şəhərində abad və səliqəli küçələr şəhidlərimizin adlarını daşıyır. Onların xatirəsinin əbədiləşdirilmsi istiqamətində işlər davam edir.

Qələbədən sonra "döyüşdüyün yerlərdə olmusanmı?" - sualına o, belə cavab verir.

- Hələ ki olmamışam. Çox çətindir. O günləri bir an belə unuda bilmirəm. Bəlkə nə vaxtsa uşaqlarla gedib bu barədə onlara danışacağam. Çünki tarixi yaşatmaq lazımdır.

*Svetlana BAĞIROVA,*
*"Yeni Tərtər" qəzetinin redaktoru*

● Ölməzliyə qovuşanlar

## Həmişə ön sıralarda döyüşürdü

**İkinci Qarabağ müharibəsində yurduna, el-obasına ürəkdən bağlı olan hərbçilərimiz qorxmadan düşmən üzərinə gedərək zəfərimiz naminə şirin canlarından keçdilər. Qoynunda dünyaya göz açdıqları torpaq uğrunda tutduqları mövqelərdən bir addım da olsun geri çəkilmədilər. Cəsarətləri ilə adlarını qəhrəmanlıq tariximizə yazdılar. Ölümləri ilə ölümsüzlük qazanmağı bacardılar.**

Hünəri ilə ölümsüzlük qazanan oğullarımızdan biri də Azərbaycan Ordusunun zabiti Nazim Hüseynovdur. Olduqca şərəfli bir ömür yolu keçmiş Nazim Yaqub oğlu Hüseynov 1977-ci il oktyabrın 1-də İmişlinin Bəhrəmtəpə qəsəbəsində anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra - 1995-ci ildə ordu sıralarına çağırılmışdı.

Əsgəri borcunu başa vuran Nazim canından da çox sevdiyi Vətənə xidmət etmək üçün həyatını orduya bağladı. Bacarığını, biliyini, çalışqanlığını və hərbi sahəyə marağını nəzərə alan komandanlıq 1997-ci ildə onu Pakistan İslam Respublikasındakı Hərbi Ali Komandirlər Məktəbinə göndərdi. Nazim bu qardaş və dost ölkədə hərbi təhsil alan ilk azərbaycanlılardan idi. Hələ kiçik yaşlarından hərbi sahəyə böyük maraq göstərən Nazim bu ali məktəbdə xüsusi təyinatlılar kursunu uğurla bitirdi. Doğma vətənə, ordumuzun sıralarına qayıtdı. Silahlı Qüvvələrin "N" hərbi hissəsində xidmətə başladı. Gənc zabit N.Hüseynov xarici ölkələrdə keçirilən hərbi təlimlərə də göndərilirdi. Bir qayda olaraq o, bu yüksəksəviyyəli təlimlərdə fəal iştirak edirdi. Xidməti ərzində zabit Nazim Hüseynov ABŞ, Yunanıstan, İsveçrə, İtaliya, Litva, Avstraliya və başqa ölkələrdə keçirilən NATO təlimlərinin iştirakçısı olmuşdu. Xidmət müddətində 18 dəfə müxtəlif ölkələrə səfərə getmişdi. İştirakçısı olduğu təlimlər zamanı kifayət qədər hərbi təcrübə toplamışdı. Nazim Hüseynov topladığı bu təcrübəni təlimlər zamanı tabeliyində olan şəxsi heyətə də aşılayırdı. Komandiri olduğu zabit və əsgərlərin döyüş hazırlığının yüksək olmasına çalışırdı.



Torpaqlarımızın azadlığı uğrunda savaşa həmişə hazır olan təcrübəli zabit 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdi. Düşmənin ön mövqelərinin darmadağın edilməsində böyük hünər və cəsarətlə vuruşmuşdu. Təcrübəli zabitin nümunəvi xidməti komandanlıq tərəfindən layiqincə qiymətləndirilmişdi. O, III dərəcəli "Qüsursuz xidmətə görə" və Azərbaycan Silahlı Qüvvələrinin yubiley medalları ilə təltif olunmuşdu. Ömrünün 24 ilini hərbi xidmətə sərf etmiş, tabor komandirinin müavini vəzifəsinə qədər yüksəlmiş zabit Nazim Hüseynov 2018-ci ildə ordu sıralarından ehtiyata buraxılmışdı.

2020-ci il sentyabrın 27-də torpaqlarımızın azadlığı uğrunda İkinci Qarabağ müharibəsi başlayanda ehtiyatda olan zabit Nazim Hüseynov könüllü olaraq ordu sıralarına qayıtdı. Onun döyüş yolu Füzulidən başladı, Xocavənddən, Cəbrayıldan keçərək Hadrut qəsəbəsində tamamlandı. Bu ərazilərin erməni işğalçılarından azad olunması zamanı həmişə ön sıralarda vuruşdu. Zəngin döyüş təcrübəsi olan zabitin rəhbərliyi ilə keçirilən əməliyyatların birində dörd erməni quldur əsir alındı. Nazim Hüseynov oktyabrın 5-də səhər saatlarında dəqiq atəş zərbəsi ilə düşmənin ön xəttinə baş çəkməyə gəlmiş yüksəkrütbəli zabitini məhv etdi.

Mayor Nazim Hüseynovun son döyüşü oktyabrın 8-də Füzuli-Hadrut yolunun ətrafında oldu. Düşmən onu və tabeliyində olan iki əsgəri zirehli texnikaların dəstəyi ilə mühasirəyə aldı. İşğalçılar onları əsir götürmək istəyirdilər. Amma bu istəklərinə çatmadılar. Zabit Nazim Hüseynov bir əlində avtomat, bir əlində pulemyot əsgərləri ilə çiyin-çiyinə onları mühasirəyə salmağa çalışan yağılarla döyüşə girdi. Qüvvələr qeyri-bərabər olsa da, cəsarətli hərbçilərimiz mühasirəni yardılar. Oktyabrın 8-də başlanan həmin döyüşdə Nazim Hüseynov baş nahiyyəsindən ağır yaralandı. Həkimlərin onu xilas etmək cəhdi müsbət nəticə vermədi. Doğmalarının, yaxınlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə İmişli rayonunda torpağa tapşırıldı. Onun Vətənə bir övladı əmanət qalıb.

Şəhid Nazim Hüseynov axırıncı dəfə doğmaları ilə danışanda böyük inamla demişdi: "Son damla qanıma kimi döyüşməyə söz vermişəm. Bu müqəddəs yoldan çəkilməyəcəyəm. Evə qələbə ilə dönəcəyəm". Vətənpərvər zabit verdiyi sözə əməl etdi.

44 günlük Vətən müharibəsində göstərdiyi igidliyə görə Nazim Yaqub oğlu Hüseynov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

*V.MƏMMƏDQULUOĞLU,*
*"Azərbaycan"*




## Milli Qəhrəman İsgəndər Aznaurovun xatirəsi anılıb

**Vətən uğrunda şəhidlik zirvəsinə yüksələn Azərbaycanın Milli Qəhrəmanı Aznaurov İsgəndər Söhrab oğlunun əziz xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, Milli Qəhrəmanın ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətən uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər şəhidimizin döyüşlərdə göstərdiyi qəhrəmanlıq və şücaətlərindən söz açaraq, şərəfli həyat yolundan danışıblar.

Milli Qəhrəmanın ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və birinci xanım Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

REGİONLAR

## *Goranboy:* taxılçılıqda məhsuldarlıq yüksəkdir - buğda üzrə 44,5, arpa üzrə 38,9 sentner

**Prezident İlham Əliyevin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrası Goranboy rayonunda əsas diqqət mərkəzindədir.**

Kənd təsərrüfatının bir çox sahəsi üzrə rayonda yüksək nəticələrə nail olunur. Bunu biçini artıq yekunlaşmış taxılçılıqda da görmək mümkündür. Rayon üzrə ümumilikdə 20 min 525,4 hektarda taxıl əkini aparılmışdır. Onun 5930,4 hektarı buğda, 14595 hektarı arpa sahələri olmuşdur. Əlavə olaraq, 853 hektarda xəsil əkini həyata keçirilmişdir. Sahələrdən 56774,6 ton arpa əldə edilmişdir. Orta məhsuldarlıq 38,9 sentner olmuşdur. Buğda sahələrindən isə 26 min 77,9 ton məhsul biçilmişdir. Əvvəlki illərdən fərqli olaraq məhsuldarlıq 44,5 sentnerə çatmışdır.

Hazırda rayon fermerləri gələn ilin bol məhsulu üçün hazırlıq işlərinə başlamışlar. Belə ki, müasir suvarma sistemləri ilə təchiz edilmiş 848 hektarda ərzaqlıq buğda əkini aparılmışdır. Bu sahələrin 727 hektarı "Region Agro" MMC-nin, 208 hektarı fiziki şəxs Fərid Əkbərzadənin və 150 hektarı "Blu River Agro"nundur.

Pambıqçılığa gəldikdə, cari mövsüm istehsalçılarla bağlanmış müqavilələr əsasında ümumilikdə 1492,6 hekrarda pambıq əkini aparılmışdır. Əkin sahələrinin 304 hektarı müasir suvarma sistemləri ilə təchiz olunmuşdur.

Rayonda inkişaf edən kənd təsərrüfatı sahələrindən biri də tütünçülükdür. Ötən illər rayonda cəmi 8 hektar sahədə tütün becərildiyi halda, bu göstərici 2025-ci ildə 180, 2026-cı ildə isə 330 hektara çatmışdır. Tütün şitillərinin sahələrə köçürülməsi artıq yekunlaşmışdır.

Bunlardan əlavə, 74,5 hektarda şəkər çuğunduru, 1091,8 hektarda qarğıdalı, 2553 hektarda günəbaxan, 79,2 hektarda bostan bitkiləri, 1531,6 hektarda tərəvəz və digər bitkilər əkilmişdir.



Goranboy son illər heyvandarlıq sahəsində də fərqlənir. Əldə etdiyimiz son məlumata görə, rayon üzrə qaramalın sayı 38,7 min, davarın sayı 163,4 başdır. Bu ilin ötən dövründə 5 min ton ət, 41,2 min ton süd istehsal olunmuşdur. 2026-cı ilin 1 avqust tarixinədək ötən ilin eyni dövrü ilə müqayisədə ət istehsalında 3,8, süd istehsalında 0,2 ton, yumurta istehsalında 82 min ədəd, yun istehsalında isə 0,2 ton artım olmuşdur.

Muzdurlar kəndi ərazisində fəaliyyət göstərən Teymur Hacızadəyə məxsus "Türk Qida Sənaye" MMC-də iki istiqamət üzrə damazlıq heyvanlar saxlanılır. Ötən il 75 baş simmental, 264 baş holşteyn-friz cinsli heyvan olmaqla, ümumilikdə 339 baş damazlıq mal-qara olmuşdur. Bu il də təsərrüfatda avqustun əvvəlinədək süd istehsalı 586 tona çatmışdır. MMC-də təsərrüfatda ümumilikdə 355 baş mal-qara, o cümlədən 72 baş simmental və 283 baş holşteyn-friz cinsli heyvan saxlanılır.

Balakürd kəndi ərazisində Feyzulla Nəbiyevə məxsus heyvandarlıq təsərrüfatı da uğurlu göstəricilərə nail olur. Təsərrüfatda keçən il 1393 ton süd istehsal edilmişdir. Cari il avqustun 1-dək süd istehsalı 653,077 tona çatmışdır. Təsərrüfatda ümumilikdə 360 baş holşteyn-friz cinsli mal-qara bəslənilir.

Cins tərkibli heyvanlardan söz düşmüşkən qeyd edək ki, hazırda fermer təsərrüfatlarında 1735 baş qaramal süni yolla mayalandırılmış, nəticədə 713 baş sağlam buzov və 2 baş balaq (camış balası) doğulmuşdur.

Rayonda baramaçılığa da maraq artır. Əgər ötən il rayon üzrə 41 kümçüyə 50 qutu barama toxumu paylanılmış və 2038,8 kiloqram barama təhvil verilmişsə, bu il kümçülər 2632,15 kiloqram yaş barama istehsal etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bir gün Kəlbəcər yaylağında

**Çoxdan arzusunda olduğumuz səfərdəyik. Yolumuz dağlar gözəli Kəlbəcərədir. O Kəlbəcərə ki, dar cığırında, ağ daşında, sərt qayasında, gül-çiçəkli yamaclarında, Əyriqarında, Taxta düzündə, Sarı bulağında, İstisuyun dolamalarında unudulmaz gənclik xatirələrimiz var.**

O Kəlbəcərə ki, nankor qonşularımız - Ermənistan silahli qüvvələri 30 il işğal altında saxlayaraq viran qoyub, xarabaya çevirib bu qədim yurdumuzu. O Kəlbəcərə ki, erməni faşistləri Ağdaban, Başlıbel kəndlərində, "tunel" kimi tanınan dar keçiddə, rayonun digər ərazilərində misli görünməmiş faciələr törədib, günahsız insanları qətlə yetiriblər. Nəhayət, o Kəlbəcərə ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti sayəsində bir güllə belə atılmadan düşmənlərin suyu süzülə-süzülə rədd olduqları doğma yurd yerlərimizi ziyarətə gedirdik. Ermənilər illərdən bəri yaşadıqları evləri tərk edərkən xislətlərinə uyğun olaraq dağıdır, yandırırdılar. Hətta qucağına unitaz alıb aparanları da vardı.

44 günlük savaşda qazanılan Zəfər yaralarımıza məlhəm oldu. Qəhrəman şəhidlərimizin qisası layiqincə alındı. Təbiətin incisi, Azərbaycanın İsveçrəsi azadlığa qovuşdu. Murovun başındakı duman-çən çəkildi, buludların arasından sıyrılıb çıxan günəş dağlara, yamaclara boylandı, çiçəkli çəmənlərdə bülbüllər səs-səsə verdi. İndi bu yerlərdə durnagözlü bulaqlar, qayalardan süzülüb axan gur şəlalələr yenə də qəribə harmoniya yaradır, sanki çayların şırıltısı, bulaqların zümzüməsi, göylərin gurultusu ilə ana təbiət qeyri-adi bir simfoniya bəstələyir, təşnə könüllər üçün Zəfər, Qələbə, Azadlıq nəğməsi oxuyur.

Qəhrəman Tərtəri keçib yeni salınmış rahat asfalt yolla işğaldan azad edilmiş ərazilərə daxil oluruq. Müharibənin dağıtdığı Çaylı kəndinin xaraba evləri görünür. Bu, ermənilərin bəd niyyətlərini xatırladır. Onlarla bizim aramızdakı təzad göz qabağındadır. Zəfərdən sonrakı qısa müddət ərzində bu yerlər minalardan təmizlənmiş, yolun hər iki tərəfində yüz hektarlarla ərazidə intensiv meyvə bağları salınmışdır. Bağlar artıq bara düşüb. Yetişən meyvələr yerli bazarla yanaşı, xaricə də ixrac olunur. Bax fərq budur - biz tikib-qurur, əkib-becəririk, onlar isə dağıdır, yandırır, məhv edirlər.

Suqovuşanda dayanıb bu yerlərin gözəlliyinə heyran oluruq, təmiz dağ havasını ciyərlərimizə çəkib rahatlanırıq. Göldə suyun səviyyəsi xeyli yüksəlib. Bu o deməkdir ki, Tərtər kəndlisinin sudan korluğu olmayacaq. Gölün ətrafında yaraşıqlı park salınıb, gələn qonaqların istirahəti üçün yaxşı şərait yaradılıb. Bu gözəl məkan Tərtər və Bərdə sakinləri üçün çox əlçatandır. Çünki yaxın məsafədə yerləşirlər.

Növbəti dayanacağımız Sərsəng su anbarı oldu. Region üçün bu möhtəşəm dəryaçanın iqtisadi əhəmiyyəti böyükdür. Tərtər, Bərdə, Yevlax, Ağdam, Goranboy rayonlarının əkin sahələrinin su ilə təminatında Sərsəng su anbarının müstəsna rolu var. Meşələrlə əhatə olunmuş göl dağların mirvarisi kimi də göz oxşayır, diqqət çəkir. Kəlbəcərə aparan yol dağların başına dolana-dolana bizləri füsunkar təbiət mənzərələri ilə görüşdürür. Sahili ilə irəlilədiyimiz Tərtər çayının dupduru suyu, laylaya bənzər şırıltısı ilə bu yerlərin gözəlliyinə yeni çalarlar qatır.

Bu da Kəlbəcər! Adı kimi özü də məğrur və əzəmətli olan Kəlbəcər. Mübaliğə kimi qəbul edilməsin, Kəlbəcərə çəkilən yol bəlkə də Avropa standartlarından da üstündür. Yol yetərincə genişdir, kənarındakı istinad divarları yaraşıqlı və etibarlıdır, hər iki tərəfində yağış sularını ötürmək üçün kanallar inşa olunub. Bu, yolun ömrünü uzatmaq üçün vacib şərtdir.

Artıq Kəlbəcərdə xeyli əhali məskunlaşıb. Yeni inşa olunmuş evlərdə yüzlərlə ailə mənzil rahatlığına, həyat firavanlığına qovuşub. Bir zaman ağlaya-ağlaya Kəlbəcəri tərk edənlər indi doğma yurda gülə-gülə qayıdırlar. Bu ailələr uzun illər boyu yük vaqonlarında, çadırlarda, torpaq daxmalarda, yataqxanalarda olmazın zillətini çəkiblər, ağır məşəqqətini yaşayıblar. İndi burda kimi dindirirsən, kiminlə həmsöhbət olursan, hər cümləsi minnətdarlıqla bitir. Hamı şükranlıq edir, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, ordumuza, qəhrəman Azərbaycan əsgərinə könül dolusu minnətdarlıq bildirirlər. Bu gün Kəlbəcərdəki reallıq, vüsət alan tikinti-quruculuq işləri dövlətin xalq üçün çalışdığına göz önündəki canlı nümunədir.









Kəlbəcər səfərinin əsas məqsədi yaylaqlardakı vəziyyətlə yaxından tanış olmaq, heyvandarların qayğıları ilə maraqlanmaq idi. Bu səbəbdən çox ləngimədik, əşyalarımızı əvvəldən sifariş etdiyimiz hotelə qoyub yolumuza davam etdik. İstisu qəsəbəsindəki mənzərə-genişmiqyaslı tikinti-quruculuq işləri buranın yaxın gələcəkdə beynəlxalq turizm mərkəzinə çeviriləcəyindən xəbər verirdi. Sanatoriya binası möhtəşəmliyi ilə diqqət çəkirdi. Dağların qoynunda müasir tələblərə cavab verən sosial infrastruktur yaradılması İstisu kurortunun gələcək beynəlxalq nüfuzuna qoyulan etibarlı bünövrədir.

İstisuyun dolamalarını rahatlıqla qalxıb Taxta düzünə çıxdıq. Tatallar çayına çatmamış sola dönüb Gəlin qayasına tərəf istiqamət götürdük. Gedəcəyimiz ünvan fermer Sənan Məhəmmədəliyevin yatağı idi. Yaşı 40-ı haqlayan Sənan Beyləqanın Tatallar kəndindəndir. Üç qardaşdırlar - Coşqun, Əbülfəz və Sənan. Əbülfəz Rusiya vətəndaşıdır. Sənan və Coşqun isə ata-baba sənətini yaşadırlar - heyvandarlıqla məşğuldurlar. Ataları Orduxan kişi el-obada böyük xətir-hörmət sahibi olub. O üzdən həmişə hörmət və ehtiramla xatırlanır. Son dərəcə halal adam olub, həmişə haqqı müdafiə edənlərdən olub. Övladlarını da bu ruhda tərbiyə edib. Zəhmətə bağlı qardaşlar ailələrini heyvandarlıqdan qazandıqları halal gəlirlə dolandırırlar.

Kəlbəcər isə onlar üçün doğma və əzizdir. Zəfərdən sonra Kəlbəcər yaylaqlarına açılan yol bu ailə üçün də əsl xoşbəxtlik, səadət firavanlıq yoluna çevrilib. Beyləqanda geniş və rahat ev-eşikləri, bahalı minik maşınları var. Artıq neçə ildir ki, yayı yaylaqda, qışı qışlaqda keçirirlər. Uşaqlıqları bu dağlarda keçib. Babaları Məhəmmədəli kişi yaylaqda Tatallar qəbiristanlığında dəfn olunub. Hər il yazda yaylağa çıxanda ailə üzvləri ilk olaraq babalarının qəbrini ziyarət edirlər. Onu da qeyd etmək yerinə düşər ki, zamanının məşhur heyvandarları olan Məhəmmədəli kişi yüksək məhsuldarlığa malik boz kərə Tatallar qoyun cinsinin yayılmasına müstəsna xidmətlər göstərib. İndi Sənanın fermasındakı qoyunlar da məhz bu cinsdəndir.

Sənan Məhəmmədəliyevlə söhbətimiz maraqlı alındı. Çox məlumatlıydı. Ölkədə və dünyada baş verən hadisələrdən xəbərdar idi. Təbii ki, yaylaqda dağların qoynunda internet şəbəkəsinin olması maraqlanan hər kəs üçün dünyada və ölkədə baş verən hadisələrdən isti-isti xəbər tutmaq imkanı verir. Amma bizim söhbətimiz daha çox aqrar sektor, o cümlədən heyvandarlıqla bağlı oldu. Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramına gəlib çatanda isə müsahibimin üzünə təbəssüm qondu. Ürəyindən keçənləri həvəslə dilə gətirdi:

- Biz əmək adamları dövlətimizdən, Prezidentin qayğı və diqqətindən razıyıq. 30 ildən sonra bu yerlərə qayıtmışıqsa, niyə də razı olmayaq. İndi dövlətimizin istədiyi budur ki, ölkəmizin ərzaq məhsullarına olan ehtiyacı daxili imkanlar hesabına ödənilsin. Hökumət bunun üçün hər şey edir. Ancaq hələ istənilən nəticə ortada yoxdur. Bax, 3 aydan çoxdur yaylaqdayıq. Hələ də əlaqədar nazirliyin bircə nəfər nümayəndəsi gəlib halımızı soruşmayıb, işimizlə, problemlərimizlə maraqlanmayıb. Bircə problemi deyim. Bu vaxtadək yaylaq mövsümü ərzində dağlarda baytarlıq xidməti məntəqələri fəaliyyət göstərmir. Amma ona ehtiyacımız çoxdur. Adi bir dərman üçün 200 kilometr yol getməyə məcbur oluruq. Başqa bir məsələ yaylaq yerlərinin icarəyə verilməsi ilə bağlıdır. Bu məsələ hər il gündəmə gələndə mübahisələr yaranır. Hər il yenidən sənədləşmə işləri aparılır. Yaylaq yerlərinin 15-20 il müddətinə icarəyə verilməsi ümumi işin xeyrinə olar. O zaman biz yaylaqda yüngül tipli evlər quraşdıra bilərik. Heyvanların arandan yaylağa və geri daşınmasında da çətinliklərlə üzləşirik. Yük maşınının sürücüləri bir reys üçün 500 manat alırlar. Hökumət səviyyəsində bu məsələyə baxmaq olmazmı? Qoyunların çimizdirilməsi və yaylaq yerlərindən istifadəyə görə hər hektar üçün xeyli pul ödəyirik. Bütün bunlara görə isə istehsal edilən heyvandarlıq məhsullarının maya dəyəri baha başa gəlir ki, bu da dövlətin sosial siyasəti ilə düz gəlmir.

Əməksevər bir ailənin halal süfrəsində qonaq olduq. Hər loxma çörəyin, hər qurtum suyun dadı, tamı başqa idi. Səmimiyyət, qonaqpərvərlik ruhumuza sığal çəkir, içimizdə bir hüzur yaradırdı. Ailəsinin dolanışığını alın təriylə, halal zəhmətiylə qazanmaq yolunu seçən hər kəsin əməyi alqışa layiqdir. İstər çoban olsun, istər alim.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Fransız üzüm sortu Cəlilabadda özünü "vətən"indəkindən daha yaxşı "hiss edir"

**Cəlilabadın üzümü haqqında söhbət düşəndə, yada keçən əsrin 80-ci illəri düşür. O zaman rayonda üzümçülük sürətlə inkişaf edirdi. Az müddət ərzində üzüm bağları 27 min hektara çatdırılmışdı. İstehsalın həcmi 300 min tona yaxın idi. Rayon ərazisində 9 şərab zavodu fəaliyyət göstərirdi. İstehsal olunan şərab keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə göndərilirdi.**

Üzümçülüyün inkişafı rayonda ümumi sosial-iqtisadi inkişafa yol açmışdı. Rayon əhalisinin həyat şəraiti ildən-ilə yaxşılaşır, tikinti-quruculuq, abadlıq işləri yeni vüsət alırdı. Neçə-neçə üzümçü sovet dövrünün ən yüksək mükafatlarına layiq görülürdü.

Bu yerdə məşhur bir əhvalat yada düşür. 1980-ci ilin üzüm yığımı mövsümünə təqribən 1-2 ay qalmış Ermənistanın ovaxtkı rəhbəri Karen Dəmirçiyan Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevə zəng vurub üzüm istehsalı ilə əlaqədar Azərbaycanı sosializm yarışına çağırmaq istədiyini bildirir. Ulu Öndər gülümsəyərək deyir ki, siz bizimlə yox, bizim bir rayonumuz var - Cəlilabad, onunla yarışa bilərsiniz. O illər Cəlilabad Ermənistan qədər üzüm istehsal edirdi. Bu sözlərdən sonra K.Dəmirçiyanın deməyə sözü qalmır.

Lakin sonralar M.Qorbaçovun dağıdıcı "antialkoqol" siyasəti SSRİ məkanında, o cümlədən Azərbaycanda üzümçülüyün, necə deyərlər, "belini" qırdı. Onilliklər ərzində böyük zəhmətlə salınan üzüm bağları, şərab emalı müəssisələri ya dağıdıldı, ya da fəaliyyətini dayandırdı.

Amma zaman sübut etdi ki, xalqının, ölkəsinin haradan gəlib haraya getdiyini bilməyənlər axır bir gün tarixin zibilliyinə yuvarlanırlar. Təəssüf ki, onların vurduqları ziyanın fəsadlarını aradan qaldırmaq üçün bəzən onilliklər də kifayət etmir. Nə vaxtsa yazmışdım:

*Bir dəli quyuya bir daş atıbdır,*
*Min ağıllı onu çıxara bilmir.*
*...Daşa da ad qoydu çox əziz-xələf.*
*Dedi ki, qoyuram "yenidənqurma".*
*O daş o quyuya atılan gündən*
*Başladı vurhavur, yenidənqırma.*

Müstəqilliyimizi bərpa etdikdən sonra həyata keçirilən aqrar islahatlar, daha sonra Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ölkədə, o sırada Cəlilabadda aqrar sahənin bütün sahələri kimi, üzümçülüyün də inkişafına zəmin yaratdı. Cəlilabadlı fermerlər daha keyfiyyətli və daha məhsuldar üzüm sortlarının ardınca xarici ölkələrə getdilər. Eyni zamanda həmin ölkələrin üzümçülük üzrə mütəxəssisləri Cəlilabada gəlib yerli şəraitlə tanış oldular, bu ərazilərin üzümçülük üçün çox əlverişli olduğunu qeyd etdilər. Çox çəkmədi ki, rayona "Artika" (qara kişmişi), "Belek" (ağ kişmişi), "Sentennial", "Red-Klob", "Prima", "Ora", "Viktoriya" və digər növlərdən olan üzüm tingləri gətirildi. Ən yaxşı yerli növlərlə yanaşı, adıçəkilən sortlar da əkilərək onlara xüsusi diqqət və qayğı göstərildi. Fransız mütəxəssislər həmin sortların Cəlilabad şəraitində necə effekt verdiyini bilmək üçün vaxtaşırı olaraq rayona gəlib-gedirdilər. Salınan üzüm bağı 3-cü il bara düşdü. Bunu görən fransızlar bildirdilər ki, bu sortlar onlarda ən tezi 5-ci ildə bar verir. Onlar bunu bol günəş hərarəti, münbit torpaq və nümunəvi becərmə ilə əlaqələndirdilər.





Alınan yüksək nəticələr cəlilabadlı fermerləri, sahibkarları ruhlandırdı. Çünki yeni sortlar onlara yaxşı gəlir vəd edirdi.

Hazırda rayonda 1430 hektar üzüm bağı var. Keçən il həmin bağlardan 18 min 870 ton məhsul yığılmışdır. Bu il də Cəlilabadda üzüm boldur. Bu günlər 4 qohumun - Aslan Əhmədov, Minayə, İlham və Kamran Bayramovların fermer təsərrüfatında olduq. Cari il yaradılan təsərrüfatın 13 hektar üzüm bağı var. Ondan 11 hektarı barverəndir, 2 hektarı isə hələ bara düşməyib.

Qohumlar təsərrüfata başçılıq etməyi Aslan Əhmədova həvalə ediblər. Bu da əbəs deyil. A.Əhmədov hələ sovet dövründə üzümçülük sahəsində çalışıb, ixtisasca aqronomdur. Keçmiş günləri yada salan fermer deyir ki, o zaman üzümü SSRİ-nin müxtəlif şəhərlərinə göndərirdik. Təkcə Rusiyanın 80 şəhərinə 110 min ton yüksəkkeyiyyətli üzüm yola salınırdı. Müstəqillik illərində daha keyfiyyətli üzüm, xüsusən süfrələrin dadı və bəzəyi olan üzüm sortları yetişdirməyə nail olduqlarını qeyd edən A.Əhmədov söhbət əsnasında bu ilin üzümçülük üçün əlverişsiz olduğunu da vurğuladı. Buna görə də təsərrüfatda keçən illə müqayisədə təxminən 50 faiz az məhsul yetişdirildiyini bildirdi. Məlum oldu ki, indiyədək 40 tondan artıq məhsul yığıblar.

Cəlilabadda bu gün hara getsən, həmişə olduğu kimi, zəhmət adamlarının tarlada, bağda yorulmaq bilmədən çalışdıqlarını görürsən. Bir tərəfdə üzüm, çiyələk, qarğıdalı yığılır, bir tərəfdə payızlıq kartof əkilir, başqa tərəfdə torpağa qulluq göstərilir, ona üzvi gübrə - peyin verilir, gələn il çiyələk şitili əkiləcək sahələr hazırlanır, taxılı biçilmiş sahələr şumlanır və digər işlər həyata keçirilir. Kəndli, fermer bir an belə işsiz qalmır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Gəncədə ixtisaslaşdırılmış əmək yarmarkası keçirilib

**ƏƏSMN Dövlət Məşğulluq Agentliyinin Gəncə-Daşkəsən Regional Məşğulluq filialı və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Gəncədə ixtisaslaşdırılmış əmək yarmarkası keçirilib.**

Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Mərkəzində keçirilən yarmarkada şəhər icra hakimiyyəti başçısının müavini Adil Tağıyev, Peşə Təhsili üzrə Dövlət Agentliyinin şöbə müdiri Nigar Əsgərova, Dövlət Məşğulluq Agentliyinin departament müdiri Saleh Həsənov, KOBİA-nın Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonları üzrə regional koordinatoru Anar Əliyev iştirak etmişlər.

Əmək yarmarkasında 27 müəssisə tərəfindən 168 vakansiya təqdim olunmuşdur. Yarmarka zamanı vakansiyalara müraciət edən şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilmiş, uyğun namizədlər üçün müvafiq göndərişlər hazırlanmışdır.

Tədbir çərçivəsində işsiz və işaxtaran şəxslərə Dövlət Məşğulluq Agentliyinin Mərkəzi Karyera filialının əməkdaşları tərəfindən peşəyönümü xidmətləri göstərilmişdir. Həmçinin aktiv məşğulluq proqramları və müraciət qaydaları barədə məlumat verilmiş, işə müraciət etmək istəyən şəxslərlə ilkin sorğular aparılmışdır.

***"Azərbaycan"***





# Mədəniyyət





● 2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir



# Bakı Kristal Zalı - Azərbaycanın müasir memarlıq rəmzi

**Bakı Kristal Zalını (Baku Crystal Hall) müasir Azərbaycanın mədəniyyət, memarlıq və strateji şəhərsalma rəmzi də hesab etmək olar. Xəzər dənizinin sahilində, Bakı buxtasının ən gözəl nöqtəsində tikilən bu möhtəşəm saray təkcə paytaxtın vizual simasını dəyişməyib, həm də şəhərin urbanizasiya dinamikasına güclü təkan verib.**

İnşa edildiyi gündən etibarən həm unikal memarlıq üslubu, həm də ətraf ərazilərin infrastrukturunu yenidən formalaşdırmaq gücü ilə dünya mətbuatının diqqət mərkəzində olan kompleks, Azərbaycanın irimiqyaslı beynəlxalq tədbirlərə evsahibliyi etmək potensialının ən bariz nümunəsidir. Keçirilən hər bir beynəlxalq müsabiqə, idman yarışı və dünya ulduzlarının konsertləri həm Bakı Kristal Zalının statusunu artırır, həm də şəhər mühitinin inkişafında mühüm rol oynayır.

## Yüksək səviyyədə təşəbbüs və himayə

Kompleksin tikintisi birbaşa ölkə rəhbərliyinin təşəbbüsünün və strateji baxışının nəticəsidir. Azərbaycan 2011-ci ildə "Avroviziya" Mahnı Müsabiqəsində qələbə qazandıqdan sonra paytaxtda beynəlxalq standartlara cavab verən müasir bir arenanın tikilməsi zərurəti yaranmışdı.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 11 iyul 2011-ci ildə "Bakı şəhərində müasir idman-konsert kompleksinin inşa edilməsi haqqında" xüsusi sərəncam imzalandı. Layihənin qısa müddətdə və uğurla reallaşdırılmasında keçiriləcək müsabiqənin Təşkilat Komitəsinə rəhbərlik edən birinci xanım Mehriban Əliyevanın müstəsna rolu olmuşdur. Onun birbaşa nəzarəti və rəhbərliyi altında aparılan hazırlıq işləri sayəsində şəhərsalma praktikasında nadir görünən nəticə əldə edildi. Almaniyanın məşhur "Alpine Bau Deutschland AG" şirkəti tərəfindən idarə olunan tikinti işləri rekord müddətdə - cəmi 8 aya tamamlandı. 2012-ci ilin may ayında qapılarını açan arena 57-ci "Avroviziya" Mahnı Müsabiqəsinə yüksək səviyyədə evsahibliyi edərək Bakını qlobal urbanizasiya xəritəsində qabaqcıl şəhərlərdən biri kimi nümayiş etdirdi. Konsert arenası təkcə funksionallığı ilə deyil, həm də estetik görünüşü ilə heyranlıq doğururdu.

Yeri gəlmişkən qeyd edək ki, müasir şəhərsalma prinsiplərinə görə, böyük ictimai obyektlərin inşası həm də ətraf mühitlə inteqrasiya olunmalı və şəhəri funksional olaraq böyütməlidir. Bakı Kristal Zalının layihələndirilməsi paytaxtın cənub girişinin simasını kökündən dəyişdi. Bu kompleksin inşası Dənizkənarı Milli Parkın yeni bulvar və Bayıl bulvarı xətləri ilə birləşərək genişlənməsinə birbaşa təkan verdi. Nəticədə bulvarın ümumi uzunluğu təxminən 4 kilometrdən 16 kilometrə qədər artırıldı. Belə bir genişlənmə şəhər əhalisinə on minlərlə kvadratmetr yeni piyada və rekreasiya zonası qazandırdı. Kompleksə və Dövlət Bayrağı Meydanına yönələn yeni yollar, genişləndirilmiş prospektlər və geniş parkinq sahələri şəhərin cənub qapısında nəqliyyat axınını tənzimləyən mühüm infrastruktur elementlərinə çevrildi.

Bir faktı da qeyd edək ki, müasir şəhərsalma elmində irihəcmli memarlıq layihələri həm də şəhər iqtisadiyyatını canlandıran güclü maliyyə mühərriki ("urban economic engine") rolunu oynayır. Bakı Kristal Zalı paytaxtın qeyri-neft sektorunun, xüsusilə xidmət və turizm sahəsinin inkişafında zəncirvari effekt yaratdı. Kompleks ölkədə işgüzar və mədəni turizmin (MICE - Görüşlər, İntensivlər, Konfranslar və Sərgilər) əsas platformasına çevrildi. Beynəlxalq tədbirlər zamanı paytaxta axın edən xarici qonaqlar mehmanxana, nəqliyyat və iaşə sektorunun gəlirlərini birbaşa artırırlar. Arenanın həm gündəlik idarəolunması, həm də irimiqyaslı şoular zamanı texniki, logistik və xidmət sahələrində minlərlə yerli mütəxəssis və gənc iş yerləri ilə təmin olunur.

XXI əsrin şəhərsalma trendləri tikililərin ətraf mühitlə harmoniyasını və davamlığını ("sustainability") əsas meyar kimi götürür. Bakı Kristal Zalı və onun yerləşdiyi ərazi "yaşıl şəhər" (green urbanism) prinsiplərinə tam cavab verir. Arenanın ucaldıldığı ərazi keçmişdə gəmi təmiri zavodlarının və neft tullantılarının yerləşdiyi ekoloji baxımdan gərgin və sənaye təyinatlı depressiv bir zona idi. Layihə çərçivəsində ərazi tamamilə təmizlənmiş, torpaq və sahil suları ekoloji reabilitasiyadan keçirilmişdir.

Yeni Bulvar xətti boyunca salınan yaşıl kəmər şəhərin karbon qazı emissiyasını azaldır və sahil boyu mikroiqlimi müsbət istiqamətdə dəyişir. Bakı Kristal Zalı funksionallığı ilə yanaşı, paytaxtın gecə siluetinə tamamilə yeni rəng qatan bir memarlıq şedevridir.

Kristal və brilyant dizayn adını almış kompleksin ümumi tikinti sahəsi 30 958 kvadratmetr, daxili arenasının sahəsi isə 10 964 kvadratmetrdir. Arenanın xarici strukturu kəsik brilyant formalarını xatırladan xüsusi panellərdən yığılmışdır. Fasada quraşdırılmış 80000-dən çox işıq diodu (LED) lampası və 2500-dən artıq proyektor binanı gecələr nəhəng bir ekrana çevirir. Bu sistem "ağıllı şəhər" (Smart City) konsepsiyasının şəhər işıqlandırılmasında ilkin və ən böyük tətbiqlərindəndir. 23 000 nəfərə qədər tamaşaçı tutumu olan daxili zalın tamamilə sütunsuz dizayn edilməsi isə müasir mühəndisliyin ən böyük uğurlarındandır və qonaqlar üçün maneəsiz vizual sahə yaradır.

## Qlobal tədbirlərin mərkəzi və "Bilbao effekti"

Şəhərsalmada obyektlərin "davamlığı" onların gələcəkdə necə istifadə olunacağı ilə ölçülür. Kristal Zal "Avroviziya"dan sonra 2015-ci ildə I Avropa Oyunları və 42-ci Şahmat Olimpiadası kimi tarixi idman yarışlarına yüksək səviyyədə evsahibliyi etdi. Cennifer Lopez, Rihanna, Kristina Aguilera kimi dünyaşöhrətli ulduzların burada keçirilən konsertləri Bakının regional miqyasda böyük bir mədəniyyət mərkəzi olduğunu göstərdi.

2012-ci ildə "Avroviziya" zamanı Kristal Zalın görüntüləri dünya üzrə 100 milyondan çox insan tərəfindən canlı izlənildi. Şəhərsalma elmində buna "Vizual brendinq" deyilir, yəni bina təkbaşına bir şəhərin qlobal reklam çarxına çevrildi. Xüsusi vurğulanmalıdır ki, arena tamamilə inklüziv şəhərsalma (unversal dizayn) prinsiplərinə uyğun tikilib. Fiziki məhdudiyyətli insanların arenaya maneəsiz daxil olması üçün panduslar, liftlər və zal daxilində xüsusi izləmə zonaları mövcuddur. Bu da obyekti "hər kəs üçün əlçatan şəhər" konsepsiyasının nümunəsinə çevirir.

Dünyada bir çox olimpiada və ya böyük tədbir arenası müsabiqə bitdikdən sonra istifadəsiz qalır və şəhər büdcəsinə yük olur. Buna şəhərsalmada "ağ fil" effekti deyilir. Kristal Zal isə bu günə qədər aktiv istifadə olunmaqla bu mənfi trendi sındırmış və Bakının daimi yaşayan mədəniyyət obyektinə çevrilmişdir.

Müasir urbanizasiya və şəhərsalma üzrə ekspertlər qeyd edirlər ki, Bakı Kristal Zalı şəhərsalma elmində "Bilbao effekti"-nin (böyük və unikal bir mədəniyyət obyektinin inşası vasitəsilə bütöv bir depressiv sənaye zonasının və şəhər iqtisadiyyatının dirçəldilməsi) Azərbaycandakı ən uğurlu tətbiqidir. Bu gün Bakı Kristal Zalı, sadəcə, bir konsert zalı deyil, o, paytaxtımızın memarlıq təkamülünü, düzgün şəhərsalma planlamasını və şəhərimizin qonaqpərvər, müasir dünya meqapolislərindən birinə çevrilməsini sübut edən canlı bir abidədir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Ziyalılarımız

# Görkəmli maarifçi, unudulmaz müəllim



**İşıqlı düşüncələri və ideyaları ilə zamanı qabaqlayan maarifçi ziyalılar həmişə xalqlarının önündə getmiş, cəmiyyətdə aparıcı rol oynamışlar. Xalqının maariflənməsi, keçmişin zərərli qalıqlarından uzaqlaşması, elm öyrənməsi naminə fədakarlıq göstərmişlər. Qarşılarına qoyduqları məqsədlərinə çatmaq üçün öz vəsaitləri hesabına məktəb açmış, savadsızlara dərs demiş, yazıb-oxumağı öyrətmişlər. Məhz belə cəfakeş, vətənpərvər, xalqın içindən çıxmış görkəmli ziyalılar cəmiyyətin xilaskarlarına çevrilmişlər.**

Xalqımızın maariflənməsi istiqamətində böyük fədakarlıq göstərmiş ziyalılardan biri də Səfərəli bəy Vəlibəyov olmuşdu. Onun illər uzunu çəkdiyi zəhmət hədər getməmişdi. Xalqın içindən çıxmış savadlı, bilikli insanlar müəllimlərinin yarımçıq qalmış maarifçilik yollarını uğurla davam etdirmişlər. Həmişə xalqın ön sıralarında addımlamışlar.

Böyük maarifçi Səfərəli bəy Vəlibəyov 1861-ci ildə Şuşada dünyaya göz açmışdı. İlk təhsilini şəhərdəki mollaxanada almışdı. Onun istedadı, bacarığı elə kiçik yaşlarından özünü göstərmişdi. Elmə, biliyə maraq göstərən Səfərəli təhsil ala-ala həm də ərəb və fars dillərinə mükəmməl yiyələnmişdi. 1875-ci ildə mollaxana təhsilini başa vurduqdan sonra Şuşa dördsinifli şəhər məktəbinə qəbul olmuşdu. Elmi biliklərə dərindən yiyələnən Səfərəli 1879-cu ildə dördsinifli şəhər məktəbini uğurla başa vurmuşdu.

Həmin il S.Vəlibəyovun həyatında baş verən əlamətdar hadisə onun gələcək ömür yolunu xeyli dəyişmişdi. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının nəzdində açılmış Azərbaycan şöbəsinə tələbə toplamaq üçün Şuşaya gələn Aleksey Çernyayevski başqa gənclərlə yanaşı, Səfərəli ilə də söhbət aparmışdı. Onun daha hazırlıqlı, bilikli olduğunu görüb seminariyanın ikinci sinfinə qəbul etmişdi. Səfərəli böyük həvəslə burada oxumağa başlamış və 1881-ci ildə seminariyanı yüksək göstəricilərlə bitirmişdi.

Səfərəli Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirən ilk üç azərbaycanlıdan biri olmuşdu. Biliyini, bacarığını nəzərə alan rəhbərlik onu təhsil ocağında rəhbər vəzifədə saxlamışdı. 18 il o, onlarla istedadlı maarifçi gəncin hazırlanmasına böyük zəhmət sərf etmişdi. Sonrakı illər Azərbaycanın görkəmli yazıçıları və ictimai xadimi olmuş C.Məmmədquluzadə, N.Nərimanov, S.S.Axundov və başqaları ibtidai təhsillərini Səfərəli bəy Vəlibəyovdan almışlar.

Seminariyanın Azərbaycan şöbəsini idarə edən A.Çernyayevski qabaqcıl fikirli, öz işini sevən müəllim kadrların hazırlanmasına xüsusi önəm verirdi. Tələbələrə tarix və coğrafiyadan dərs deyirdi. A.Çernyayevski S.Vəlibəyovu öz yerinə hazırlayırdı. 1881-ci ildə seminariyanı bitirən S.Vəlibəyov müəllim kimi burada fəaliyyətə başlamışdı. Səfərəli bəy pedaqoji fəaliyyəti ilə yanaşı, seminariyanın ictimai həyatında da fəallıq göstərmişdi. O, tələbələrin sinifdənkənar məşğələlərini də daim diqqət mərkəzində saxlamış, onlara dəyərli məsləhət və tövsiyələr vermişdi.

1883-cü il yay tətili zamanı Şuşada istirahət edən S.Vəlibəyov burada məktəb açaraq uşaqlara savad öyrətməyə başlayır. Böyük maarifçinin açdığı məktəbdə müxtəlif təbəqələrdən olan 25 şagird təhsil alırdı. Səfərəli bəy tədrisi səs üsulu ilə aparırdı. Tədrisin bu üsulda aparılmasının üstünlüklərini də şagirdlərinə ətraflı izah edir, başa salırdı.

Səfərəli bəy müasirləri arasında təkcə müəllim kimi tanınmamışdı. O, həm də görkəmli maarif xadimi, ustad metodist, bacarıqlı tərcüməçi və geniş biliyə malik alim kimi şöhrət qazanmışdı. Onun "Vətən dili" (II hissə, A. Çernyayevski ilə birlikdə) dərsliyi, rus dilindən etdiyi tərcümələr, "Qüdrəti-xuda", "Üsuli-cədid", tarix, ədəbiyyat, coğrafiya kitabları və görkəmli adamların bioqrafiyasına dair məlumat verən "Xəzineyi-əxbar" adlı ensiklopedik səviyyəli əsəri uzun illər uşaqların ən çox sevdikləri kitablar olmuşdu. Gələcəyin böyük ziyalıları məhz bu kitabları oxuya-oxuya elmi biliklərə yiyələnmişlər.

Tanınmış maarifçi S.Vəlibəyov dövrünün mətbuat orqanlarında da publisistik məqalələrlə çıxış edirdi. Onun yazdığı maraqlı, dövrlə səsləşən məqalələri "Ziyayi-Qafqaziyyə", "Tərcüman", "Kəşkül", "Kafkaz", "Novoye obozreniye", "Kaspi" kimi sevilən və oxunan mətbuat orqanlarında çap olunurdu. Görkəmli maarifçi "Türk dili barəsində", "Qoridən məktub", "Təzə kitabxana və qiraətxana", "Tiflisdən məktub", "Şuşadan məktub", N.Nərimanovun "Dilin bəlası" əsərinin ilk tamaşası haqqında yazdığı "Bakıdan məktub", A.Çernyayevskinin "Vətən dili" (I hissə) dərsliyinin təhlilinə həsr olunmuş "Biblioqrafiya" və digər məqalələri oxucular tərəfindən maraqla qarşılanırdı.

Səfərəli bəy Vəlibəyovun elmi-pedaqoji fəaliyyətində onun məşhur tatar maarifçisi, türk milli intibahının tarixi təşəkkülündə əvəzsiz xidmətləri olmuş "Tərcüman" qəzetinin redaktoru İsmayıl bəy Qaspiralı ilə görüşü də böyük rol oynamışdı. XIX əsrin 90-cı illərində Səfərəli bəy Qori seminariyasının Azərbaycan şöbəsinin müdiri, tanınmış maarifçi-pedaqoq Firudun bəy Köçərli ilə birlikdə Krıma gedərək İsmayıl bəy Qaspiralı ilə görüşmüşdü. Bu tarixi görüş onun yaddaşında dərin iz buraxmışdı.

Təəssüflər olsun ki, XIX əsrin 90-cı illərində Qafqaz təhsil orqanının bəzi mürtəce fikirli rəhbərləri müxtəlif bəhanələrlə Azərbaycan dilini seminariyanın tədris proqramından çıxarmağa çalışırdılar. Bütün bunlar S.Vəlibəyovun amalları ilə üst-üstə düşmüşdü. Çünki o, şagirdlərin doğma dilində təhsli almasını istəyirdi. Əqidəsinə sadiq qalan Səfərəli bəy Azərbaycan dilinin tədris proqramından çıxarılmasına etiraz edirdi. Amma mürtəce qüvvələr də geri çəkilmirdilər. S.Vəlibəyovun doğma dilimiz uğrunda göstərdiyi prinsipiallıq onun Zaqafqaziya Müəllimlər Seminariasından azad olunması ilə nəticələndi. Buna görə də S.Vəlibəyov 1896-cı ildə Bakıya üz tutdu. İki il müəllimlik etdikdən sonra Bakı gömrükxanasında tərcüməçi vəzifəsində işləməyə başladı.

Səfərəli bəy Bəhmən Mirzə Qacar-Qovanlının qızı Xurşud xanım ilə ailə qurmuşdu. Bu evlilikdən Nigar və Süreyya adlı qızları dünyaya gəlmişdir.

Səfərəli bəy Vəlibəyov 1902-ci il avqustun 31-də Bakıda ürək xəstəliyindən vəfat etmişdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Yeni infrastruktur

# *Möhtəşəm sağlamlıq mərkəzi:* Bakı Su İdmanı Sarayı

**Azərbaycanda idmanın kütləviləşdirilməsi və ölkəmizin beynəlxalq idman arenalarında mövqeyinin möhkəmləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu strateji xəttin ən bariz və möhtəşəm nümunələrindən biri də məhz dövlətin birbaşa diqqət və dəstəyi ilə ərsəyə gələn Bakı Su İdmanı Sarayıdır.**



Prezident İlham Əliyevin ölkədə su idmanı növlərinin inkişaf etdirilməsi məqsədilə 30 avqust 2012-ci ildə imzaladığı sərəncam bu nəhəng layihənin təməl bazası olmuşdur. 2013-cü ildə dövlətimizin başçısının şəxsi iştirakı ilə bünörəsi qoyulan bu kompleks, 20 aprel 2015-ci ildə istifadəyə verilmişdir.

Dövlət büdcəsi hesabına maliyyələşən, 6 hektar ərazidə qurulmuş, 72 min kvadratmetrlik bu nəhəng arenada dünyanın ən qabaqcıl texnologiyalarından və memarlıq elementlərindən istifadə olunmuşdur. Kompleks Beynəlxalq Üzgüçülük Federasiyasının (FINA) ən müasir standartlarına tam cavab verəcək səviyyədə avadanlıqlarla təchiz edilmişdir.

Dövlətin apardığı uğurlu idman diplomatiyası nəticəsində saray "Bakı-2015" I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və Avropa Gənclər Olimpiya Festivalı kimi qlobal miqyaslı tədbirlərdə su idmanı üzrə əsas mərkəz rolunu oynamışdır. Kompleks həmçinin dünya kuboku kimi nüfuzlu yarışlara evsahibliyi etmək üçün mütəmadi olaraq dövlət səviyyəsində texniki cəhətdən yenilənir. Saray birbaşa olaraq Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeçiliyində fəaliyyət göstərir. Nazirlik və Azərbaycan Üzgüçülük Federasiyası tərəfindən burada mütəmadi olaraq ölkə çempionatları, yerli turnirlər təşkil edilir və gənc istedadların üzə çıxarılması layihələri icra olunur. Azərbaycanın üzgüçülük, suya tullanma, su polosu və bədii (sinxron) üzgüçülük üzrə milli komandalarının peşəkar hazırlığı, olimpiya oyunlarına və beynəlxalq turnirlərə tam tədarükü dövlət tərəfindən məhz bu yüksək şəraitli sarayda təmin edilir.



Dövlətin əsas hədəflərindən biri idmanı hər bir vətəndaş üçün əlçatan etməkdir. Paytaxt sakinlərinin, xüsusilə də uşaqların və yeniyetmələrin zərərli vərdişlərdən uzaq durması, fiziki cəhətdən sağlam böyüməsi üçün kompleksdə dövlət dəstəyi ilə müxtəlif sosial tariflər və geniş bölmələr fəaliyyət göstərir. Hovuzların suyu ən son texnoloji ultrabənövşəyi (UV) şüalar və çoxpilləli qum filtrləri ilə təmizlənir. Bu, kimyəvi qatqıların (xlorun) miqdarını minimuma endirir və idmançıların sağlamlığı (göz və dəri qıcıqlanmaları) üçün tam zərərsiz mühit yaradır.

Kompleksin, sadəcə, məşq yeri deyil, həm də yerli kadrlar yetişdirən bir mərkəz olduğunu xüsusi vurğulamaq olar. Burada yerli məşqçilər və hakimlər üçün beynəlxalq səviyyəli seminarlar, təlimlər keçirilir. Xarici mütəxəssislərin bura cəlb olunması ilə Azərbaycanda üzgüçülük və suya tullanma üzrə yeni nəsil milli məşqçilər məktəbinin təməli qoyulur.

Burada fiziki məhdudiyyətli şəxslər üçün də lazımi şərait yaradılıb. Kompleks tam olaraq para-idmançıların istifadəsinə uyğunlaşdırılıb. Azərbaycanın Paralimpiya üzgüçülük komandası da burada yüksək səviyyədə məşqlər keçirir.

Bakı Su İdmanı Sarayı, sadəcə, təcrid olunmuş bir bina kimi deyil, yeni Bakı Bulvarı və Avropa Oyunları Parkı ilə vahid bir rekreasiya və idman kompleksi (Baku Sport City) şəklində layihələndirilmişdir. Bu da paytaxtın ümumi ekoloji və sosial infrastrukturunu zənginləşdirir. Dövlətin yaratdığı bu misilsiz şərait ölkəmizdə su idman növlərinin gələcəyinə qoyulan ən böyük sərmayədir.

*İ.ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan muğamı ölkəmizi beynəlxalq aləmdə tanıdan ən qiymətli sənət incilərindəndir

**"Azərbaycan incəsənətinə, milli musiqimizə və muğam sənətinə xidmətimi böyük qürur və fəxarətlə davam etdirirəm. Azərbaycan muğamı dünyaya səs salan, ölkəmizi beynəlxalq aləmdə tanıdan ən qiymətli sənət incilərindəndir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Əməkdar artist Bəyimxanım Vəliyeva söyləyib.

Əməkdar artist bildirib ki, uzun illərdir Azərbaycan milli musiqisini və muğam sənətini Fransa, Almaniya, ABŞ, Kanada, Özbəkistan, Türkiyə, Qazaxıstan və bir sıra digər ölkələrdə böyük sevgi və qürur hissi ilə təmsil edir.

O, hazırda Azərbaycan Milli Konservatoriyasında pedaqoji fəaliyyətlə məşğul olduğunu və bütün bilik və təcrübəsini gənc ifaçılara ötürməyə çalışdığını qeyd edərək deyib: "Tələbələrimin muğamın dərinliyini, fəlsəfəsini, məsuliyyətini və bu sənətin daşıdığı mənəvi yükü dərk etmələri üçün səy göstərirəm. Çünki muğamımızın gələcəyi məhz gənc nəslin əlindədir".



Dövlət tərəfindən muğam sənətinə göstərilən diqqət və qayğıdan da danışan B.Vəliyeva qeyd edib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə 2005-ci ildən keçirilən "Muğam" Televiziya müsabiqələri bu qədim sənətin inkişafına, yeni ifaçı nəslinin yetişməsinə və muğamın dünya miqyasında daha geniş tanıdılmasına mühüm töhfə verib.

"Ən böyük arzum budur ki, Azərbaycan muğamı bundan sonra da layiqincə yaşadılsın, inkişaf etsin və gələcək nəsillərə olduğu kimi ötürülsün", - deyə o əlavə edib.

# Azərbaycan futbolunun "SABAH"ı



**Bəzən bir qələbə yalnız hesab tablosundakı rəqəmləri dəyişmir, bütöv bir ölkənin futbol haqqında düşüncəsinə yeni nəfəs gətirir, ümidlər verir, gələcəyə inamı möhkəmləndirir. Bəzən isə 90 dəqiqəlik futbol qarşılaşması illərlə xatırlanacaq tarixi hadisəyə çevrilir. Avqustun 25-də Bakıdakı Tofiq Bəhramov adına Respublika Stadionunda yaşananlar məhz belə anlardan idi.**

Azərbaycan çempionu "Sabah" İsrailin "Hapoel Beer-Şeva" klubunu 5:2 hesabı ilə məğlub edərək iki oyunun nəticəsinə görə 6:4 üstünlük qazandı və UEFA Çempionlar Liqasının əsas - liqa mərhələsinə vəsiqə əldə etdi.

Bu, sadəcə, bir futbol qələbəsi deyil, eyni zamanda Azərbaycan futbolunun Avropanın mötəbər klub arenasında yeni səhifəsinin başlanğıcıdır. 9 il əvvəl yaradılmış bir klubun qısa müddətdə keçdiyi yolun məntiqi nəticəsidir. Ən maraqlısı isə budur ki, "Sabah" adını daşıyan bu komanda artıq Azərbaycan futbolunun sabahına çevrilməkdədir.



2017-ci ildə yaradılan "Sabah"ın yüksəlişi Azərbaycan futbolunun inkişafında xüsusi yer tutur. Klub 2018-2019-cu futbol mövsümündə Premyer Liqaya yüksəldikdən sonra ardıcıl inkişaf yolu keçib. 2024-2025-ci mövsümdə ilk böyük titulunu - Azərbaycan kubokunu qazanan komanda növbəti mövsümdə daha böyük uğur qazandı. Komanda Azərbaycan Premyer Liqasının çempionu olmaqla yanaşı, Azərbaycan kubokunu da qazandı və ilk dəfə "qızıl dubl"a imza atdı. Beləliklə, 9 yaşlı klub artıq Azərbaycan futbolunun aparıcı qüvvələrindən birinə çevrilməklə yanaşı, ölkə futbolunun Avropadakı simalarından biri oldu.

Çempionlar Liqasının liqa mərhələsinə aparan yol heç də asan olmayıb. "Sabah" təsnifat mərhələlərində ardıcıl "The New Saints", Finlandiyanın "KuPS" və Danimarkanın "Aarhus" komandalarını mübarizədən kənarlaşdıraraq pley-offa yüksəlib. Pley-offda isə qarşıda İsrailin "Hapoel Beer-Şeva" klubu dayanmışdı. Rumıniyanın paytaxtı Buxarestdə keçirilən ilk qarşılaşmada "Sabah" 1:2 hesabı ilə məğlub oldu. Amma Bakı görüşü dururdu, o Bakı görüşü ki, əsl futbol dramı oldu. Rəqib hesabda önə keçsə də, "Sabah" geri çəkilmədi. Kristian Nvaçukvu və Umarali Rahmonaliyevin qollarından sonra qarşılaşmanın əsas vaxtına əlavə olunmuş sonuncu - 4-cü dəqiqədə Tellur Mütəllimovun vurduğu qol stadionu ayağa qaldırdı - 3:2! Əlavə vaxtda isə "Sabah"ın iradəsi və üstünlüyü öz sözünü dedi. Patrik Orfe Mbina 101-ci dəqiqədə, Coy Lens Mikels isə 115-ci dəqiqədə rəqib qapısını silkələdi. Nəticədə, Bakı təmsilçisi 5:2 hesablı qələbə qazandı və ümumi hesabda 6:4 üstünlüklə Çempionlar Liqasının liqa mərhələsinə yüksəldi.

Bu nəticə "Sabah"ı "Qarabağ"dan sonra UEFA Çempionlar Liqasının əsas mərhələsində mübarizə aparacaq ikinci Azərbaycan klubu kimi tarixə düşdü. Prezident İlham Əliyev sosial şəbəkə hesabında Azərbaycan çempionunu təbrik etdi: "Sabah" futbol klubunu möhtəşəm zəfər qazanaraq UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə əldə etməsi münasibətilə ürəkdən təbrik edirəm". Dövlətimizin başçısı xüsusi vurğuladı ki, yeni yaradılmış komandanın qısa müddətdə belə böyük nailiyyətə imza atması sevinc və qürur doğurur. Prezident klublarımızın ardıcıl ikinci dəfə dünyanın ən güclü klub turnirinin əsas mərhələsində mübarizə aparmaq hüququ qazanmasını Azərbaycanın bütün sahələrdə əldə etdiyi tərəqqinin və ölkəmizin idman dövləti kimi mövqeyinin bariz göstəricisi adlandırdı. Bu qiymətləndirmə "Sabah"ın qələbəsinin yalnız idman hadisəsi olmadığını göstərir. Böyük idman uğurlarının arxasında dövlət siyasəti, idmana göstərilən diqqət, müasir infrastruktur, sağlam rəqabət mühiti, gənc istedadlara yaradılan imkanlar və məqsədyönlü fəaliyyət dayanır. Bu mənada "Sabah"ın Çempionlar Liqasındakı uğuru Azərbaycanın idman siyasətinin yaratdığı imkanların real nəticələrindən biri kimi də dəyərləndirilə bilər.

Futbol heç vaxt meydanda 11 futbolçunun mübarizəsi olmayıb, həm də ölkənin idmana münasibətinin, gəncliyə verdiyi dəyərin və inkişaf imkanlarının göstəricisidir. "Sabah"ın hekayəsi göstərir ki, düzgün qurulan sistem, səbirli və ardıcıl iş qısa müddətdə böyük nəticələr verə bilər. Komandada yerli futbolçularla təcrübəli legionerlərin və gənc istedadların bir araya gəlməsi də bu uğurun mühüm amillərindəndir. Elə buna görə "Sabah"ın uğurunu Azərbaycan futbolunda yeni düşüncənin, yanaşmanın və yeni ambisiyaların ifadəsi kimi qiymətləndirmək olar.

İndi "Sabah"ı qarşıda böyük sınaqlar gözləyir. Çempionlar Liqasının liqa mərhələsi təsnifat oyunlarından tamamilə fərqli səviyyədədir. Burada Azərbaycan çempionu Avropanın ən güclü klubları ilə qarşılaşacaq. Bu, həm futbolçularımız, həm məşqçilər korpusu, həm klub rəhbərliyi, həm də bütövlükdə Azərbaycan futbolu üçün böyük təcrübə məktəbi olacaq. Bir həqiqət isə dəyişməz olaraq qalır: "Sabah" Avropanın futbol xəritəsində özünə yer qazandı. Cəmi 9 il əvvəl yaradılmış bir klubun bu qədər qısa müddətdə Azərbaycan çempionu olması, iki dəfə ölkə kubokunu qazanması və UEFA Çempionlar Liqasının liqa mərhələsinə yüksəlməsi təsadüfi uğur deyil, bu, bir futbol modelinin, məqsədyönlü inkişafın nəticəsidir. Artıq Azərbaycan futbolunun Avropada daha bir iddialı təmsilçisi var. "Sabah" Azərbaycan futbolunun sabahıdır!

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

BEYNƏLXALQ HƏYAT

# Çində yeni texnoloji inqilab - kütləvi şəkildə robot istehsalı

## "Nəyə qadir olduğumuzu görmək üçün irəliləməliyik"

**Hançjou Texnologiya İnstitutu texnologiyaya bağlı mühəndislərin yeni nəslini yetişdirmək üçün xüsusi olaraq tikilmiş ali peşə məktəblərindən biridir. Tələbə kampusu şəhərin kənarında yerləşir. Hançjou bir vaxtlar imperiyanın paytaxtı olub, hazırda isə qlobal texnologiya mərkəzidir.**



Çin fabriklərində 2 milyondan çox robot işləyir və onların sayı inanılmaz dərəcədə artmaqda davam edir. Bu, şübhəsiz ki, dünyanı dəyişdirəcək, necə ki, Çin iqtisadiyyatının qlobal transformasiyası onu artıq dəyişdirib. Dünyanın sənaye robotlarının yarıdan çoxu hazırda Çində istehsal olunur. Bu genişmiqyaslı avtomatlaşdırmanın qlobal istehsal, ticarət və innovasiyanın mərkəzində olan Çinin özünə necə təsir edəcəyi hələ də məlum deyil. Məsələn, bu, işçi qüvvəsi baxımından nə vəd edir və Çinin informasiya üzərində sərt nəzarəti nəzərə alınmaqla, bu transformasiyanın dəyərini necə qiymətləndirmək olar?

Hazırda bütün dünya Çinin sənaye inqilabını izləyir. Zavodlarda və təhsil müəssisələrində isə daha az nəzərəçarpan başqa bir inqilab baş verir. CRP Technology kampaniyası təxminən 300 nəfəri işlə təmin edir. Şirkət 9 ildir robot əllər hazırlayır. Onlar zavod ehtiyacları üçün fərdiləşdirilə və avtomobil, elektronika və ya külək turbinlərinin istehsalında istifadə edilə bilər. Şirkət iddia edir ki, tək qol təkrarlanan tapşırıqların 90 faizdən çoxunu yerinə yetirmək üçün proqramlaşdırılır.

Mühəndislər robotların insan işçilərini əvəz edə biləcəyini düşünürlər. Tədqiqat və inkişaf qrupunun üzvü 31 yaşlı Pan Kay deyir: "Yeni robotumuzun insan kimi işlək olmasını istəyirik. Ümid edirik ki, o, müstəqil düşünə biləcək. Bizə bu kimi robotlar lazımdır, çünki Çində 10 il ərzində işçi qüvvəsi çatışmazlığı yarana bilər".

Əhalinin azalması və işçi qüvvəsinin qocalması Pekinin fabrikləri avtomatlaşdırmağa tələsməsinin başqa bir səbəbidir. Rəsmi hesablamalara görə, 2035-ci ilə qədər Çin əhalisinin üçdəbirindən çoxu 60 yaşdan yuxarı olacaq. Bəzi proqnozlara əsasən, ölkə növbəti onillikdə təxminən 60 milyon insan itirəcək - bu rəqəm təxminən Fransa əhalisinə bərabərdir.

Çin ümid edir ki, avtomatlaşdırma onsuz da ləng olan iqtisadiyyata təsir etməzdən əvvəl yaxınlaşan işçi qüvvəsi çatışmazlığını aradan qaldıracaq. Lakin sürət əsasdır. İstehsal sektorunda hələ də təxminən 120 milyon insan çalışır. Çin çox sürətlə hərəkət edərsə, iş yerlərinin itirilməsinə səbəb ola bilər ki, bu da fabrikdə işləyən milyonlarla insan üçün fəlakətli nəticələrə gətirib çıxarar. "Nəzəri olaraq, maşınlar gündə 24 saat işləyə bilər. Bu da onlara insanlarla müqayisədə üstünlük verir. Lakin onlar texniki xidmət tələb edir. Bunun üçün hər gün xüsusi vaxt tələb olunur və istehsal xəttinin özü də aylıq yoxlanılmalı və təmir edilməlidir", - deyə Hançjouda yerləşən elektrikli nəqliyyat vasitələri istehsalçısı Leapmotor şirkətinin vitse-prezidenti Sao Li bildirib.

Şirkətin əlverişli, texnoloji cəhətdən inkişaf etmiş avtomobilləri Avropa və Böyük Britaniyada populyarlıq qazanır. Robotlar avtomobilyığma prosesinin hər mərhələsində iştirak edir, lakin xəttin sonuna yaxınlaşdıqca daha çox insan işçisinə ehtiyac duyulur. Şirkətdə 25000-dən çox insan çalışır və onlardan bir neçə yüz nəfəri yeni avtomobillərin son yoxlamalarında iştirak edir.

Onlara artıq ehtiyac qalmayacağı bir gün gələcəkmi? "Bu, tamamilə mümkündür", - Cao deyir: "Və bu, olduqca tez baş verə bilər. Biz emalatxanalarımızda, o cümlədən ştamplama, qaynaq və rəngləmə işlərində demək olar ki, 100 faiz avtomatlaşdırmaya nail olmuşuq".

Çinin ABŞ-dən üstünlüyü mövcuddur: onun böyük bir istehsal bazası var. Mühərriklər, batareyalar, elektronika, dişli çarxlar, sensorlar - robot qurmaq üçün lazım olan hər şey asanlıqla əldə edilə bilər.

"Çinin həm də bir ideyası, bir planı var - 5 ildən sonra harada olmaq istədiklərini bilirlər. Plan ən yüksək səviyyədə hazırlanır, lakin bölgələr və bələdiyyələr arasında bölüşdürülür", - Beynəlxalq Robototexnika Federasiyasının baş katibi Syuzan Biller belə deyir və əlavə edir: "Əgər Şençjendə robot qurmaq qərarına gəlsəniz, orada bütöv bir ekosistem var. Lazımi komponentləri tapmaq bir saatdan az vaxt aparır. Avropada isə bunun üçün bir həftəyə qədər vaxt lazım ola bilər". Eyni zamanda o, Çinin robot gövdələri yaratmaqda irəlidə getdiyini, lakin ABŞ-nin süni intellekt inkişafı da daxil olmaqla "beyinlər" yaratmaqda hələ də lider olduğunu etiraf edir.

Buna baxmayaraq, DeepSeek-dən Moonshot-a qədər Çin şirkətləri aparıcı Amerika şirkətləri ilə rəqabət apara biləcəyini iddia etdikləri yeni süni intellekt modellərini təqdim edirlər. Bir çox süni intellekt inkişafetdiricilərinin açıq (open-source) kodu yanaşması sayəsində Çin şirkətləri ABŞ-nin vacib qabaqcıl çiplərə ixrac nəzarətinə baxmayaraq, gözləniləndən daha tez rəqiblərinə çatmağı bacarıblar.

Analitiklər indi inanırlar ki, bu yarışın növbəti mərhələsi ən yaxşı dil modelinə kimin sahib olması ilə deyil, bu zəkanı milyonlarla maşına kimin yerləşdirə biləcəyi ilə müəyyən ediləcək.

İstehsal çox tez avtomatlaşdırılarsa, Çində iş yerləri itiriləcək. Buna görə də Çin indidən sonra nə baş verəcəyini təsəvvür edə bilən bir nəsil tələbə yetişdirməyə sərmayə qoyur. Məsələn, Hançjou Texnologiya İnstitutunda tələbələr 15 yaşında təhsil almağa başlaya bilərlər. Və orada dərs alanların miqyası heyrətamizdir. Bütün bir bina mühərriklər və aerokosmik mühəndisliyə həsr olunub və ayrıca məhdud girişli mərtəbədə tələbələr Çinin nadir torpaq metallarının emalı sahəsində ön sıralarda qalmasını təmin etmək üçün çalışırlar. Bu, Vaşinqtona qarşı mübarizədə digər vacib resursdur.

Bəziləri bunu çinli gənclər arasında yüksək işsizlik səviyyəsinin həlli kimi görürlər. Çünki bu gün Çində hər 5 nəfərdən biri iş tapmaqda çətinlik çəkir.

"Tələbələrimizə tələbat var və şirkətlər hətta onlar üçün əvvəlcədən yerlər sifariş edə bilərlər. Onlar heç bir iş yeri barədə narahat olmağa ehtiyac duymurlar və biz onların təliminin bir hissəsi olaraq müsabiqələr keçiririk", - deyə gənc müəllim 28 yaşlı Çen Tianyu bildirir. O, texnoloji tərəqqinin zirvəsində qalmağın vacib olduğuna inanır: "Tərəqqi qaçılmaz olaraq struktur dəyişiklikləri gətirir və tələbələr üçün gələcək məşğulluq imkanları məhz bu struktur dəyişikliklərindədir".

Lakin Çin hələ də uzunmüddətli mənzil böhranından tutmuş böyük dövlət borcu və aşağı istehlaka qədər ciddi iqtisadi çətinliklərlə üzləşir. Pekinin irəli sürdüyü texnoloji inqilabın kömək edib-etməyəcəyi bəlli deyil. Avtomatlaşdırma ilə işsiz qalmaq riski altında olanların qarşıdakı dəyişikliklərə necə baxdıqlarını qiymətləndirmək də çətindir. Robotlar onlara rifah gətirəcəkmi, yoxsa, sadəcə, əməkhaqlarını əllərindən alacaq? "Tələbələrim məndən bundan sonra nəyin olacağını soruşurlar", - deyə Çen bildirir və əlavə edir: "Mən onlara "bilmirəm" deyirəm. Texnologiya çox sürətlə dəyişir. Amma biz bir yerdə dayana bilmərik. Nəyə qadir olduğumuzu görmək üçün irəliləməliyik".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Xəzərdə "Dədə Qorqud" izi

**Azərbaycanın neft-qaz sənayesinin bugünkü nailiyyətlərində "Dədə Qorqud" yarımdalma qazma qurğusunun özünəməxsus payı var. 30 il əvvəl - 1996-cı il avqustunda əsaslı şəkildə modernləşdirilməsi başa çatan qurğu Ümummilli Lider Heydər Əliyevin xeyir-duası ilə istismara verilib.**



Əvvəllər "Kaspmorneft" kimi tanınan və sonra Azərbaycan ədəbiyyatının ən qədim eposunun qəhrəmanı şərəfinə "Dədə Qorqud" adlandırılan bu nadir qurğu ümumiyyətlə keçmiş Sovet İttifaqının neft sənayesində ilk yarımdalma qazma qurğusu olub.

"Dədə Qorqud" "Əsrin müqaviləsi" də daxil olmaqla, son üç onilliyin ən mühüm layihələrində kəşfiyyat və qazma işlərini həyata keçirən bir neçə aparıcı qurğudan biridir. Belə ki, bu qurğu istismara verildikdən sonra ilk əməliyyatlardan biri kimi "Çıraq-1" platformasının tikintisində və ilkin neft quyularının qazılmasında iştirak edib. Əməliyyatçı olan BP şirkəti ilə bağlanan müqavilələr çərçivəsində "Azəri", "Çıraq" və "Dərinsulu Günəşli" sahələrində, həmçinin "Şərqi Azəri" platformasının öncədən qazma proqramında mühüm işlər görüb. Xəzər dənizinin Azərbaycan sektorundakı nəhəng "Şahdəniz" strukturunda, o cümlədən ilk kəşfiyyat quyusu - SDX-1-in qazılmasında axtarış-qazma işlərini yerinə yetirib.

"Caspian Drilling Company" tərəfindən idarə olunan qurğu 2019-cu ilin dekabrından etibarən "Qarabağ" neft-qaz yatağında kəşfiyyat-qiymətləndirmə quyusunu qazıb və bununla 2020-ci ilin əvvəlində yatağın kəşfinə mühüm töhfə verib. Ümumiyyətlə, fəaliyyət göstərdiyi vaxt ərzində Xəzərin müxtəlif geoloji strukturlarında, məsələn, kəşfiyyat blokları və perspektivli sahələrdə onlarca dərin quyu qazıb.

"Dədə Qorqud" 450 metrədək dəniz dərinliyində işləmək və 7620 metrədək qazma aparmaq imkanına malikdir. SOCAR bəyan edir ki, bu qurğu Xəzərdə formalaşdırdığımız dəniz qazma təcrübəsinin və Azərbaycanın enerji tarixinin mühüm hissəsidir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycanın Baltikyanı ölkələrlə ticarət dövriyyəsinin həcmi açıqlanıb

**Bu ilin yanvar-iyul aylarında Azərbaycanın Baltikyanı ölkələrlə - Estoniya, Latviya və Litva ilə ticarət dövriyyəsi ümumilikdə 40 milyon 439,5 min dollar təşkil edib. Həmin göstərici ötən ilin analoji dövrü ilə müqayisədə 23,8 faiz və ya 12 milyon 600,82 min dollar azdır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsinin (DGK) yaydığı məlumatda deyilir.

Hesabat dövründə Azərbaycandan Baltikyanı ölkələrə 8 milyon 603,81 min dollar dəyərində məhsul ixrac olunub. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 65 faiz və ya 16 milyon 4,41 min dollar azalma deməkdir.

Hesabat dövründə Azərbaycan Baltikyanı ölkələrindən 31 milyon 835,69 min dollar dəyərində məhsul idxal edib ki, bu da illik müqayisədə 12 faiz və ya 3 milyon 403,59 min dollar çoxdur.



Hesabata əsasən, bu göstəricilər Azərbaycanın ümumi ixracının 0,05 faizini, ümumi idxalının isə 0,33 faizini təşkil edib.

**14 yanvar 2016-cı il tarixdə RAS-M MMC ilə Nərmin Akif qızı Yusifova arasında bağlanmış Binəqədi rayonu, 6-cı mikrorayon, H.Babaşov ünvanında 1 bloklu yaşayış binasının 106 saylı mənzilinə dair müqavilə itdiyi üçün etibarsız sayılır.**

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfova qardaşı

**AYVAZ XƏLƏFLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti İdarə Heyətinin sədri Zakir Quliyev Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfova qardaşı geologiya-mineralogiya elmləri doktoru, professor

**AYVAZ XƏLƏFLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfova qardaşı geologiya-mineralogiya elmləri doktoru, professor

**AYVAZ XƏLƏFLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfova qardaşı geologiya-mineralogiya elmləri doktoru, professor

**AYVAZ XƏLƏFLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 538-35-55
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3316
Sifariş 1087
Qiyməti 60 qəpik